# Bakıdakı Facebook nəsli

## Adnan, Emin və Azərbaycanda dissidentliyin gələcəyi



Berlin – İstanbul
15 Mart 2011

*"... onlar 1968-ci ildəki və 1980-1981-ci illərdəki Polşa təcrübələrindən parçalanmış, laqeyd və sınmış görünən cəmiyyətin aydın, qəfildən birlşəmiş bir vətəndaş cəmiyyətinə necə çevrilə biləcəyini bilirlər. Şəxsi fikrin ümumxalq fikrinə necə çevrildiyini, xalqın yenidən öz ayaqları üstündə necə durduğunu bilirlər. Bunun üçün isə onlar buzun altında işləyir və gözləyirlər."*

Timoti Qarton Eş, kommunist Çexoslovakiyasında Xartiya 77 haqqında,
Fevral 1984

*"Necə olur ki, bizim xalqımız, məğlub cəmiyyətlərin üzləşdiyi köləlik və ümidsizlik kimi ümidsiz bir seçim etməyin dilemması ilə üz üzə qalmışdır?"*

Adam Miçnik, Qdansk həbsxanasından göndərilmiş məktub, İyul 1985

## Mündəricat


XÜLASƏ ..... I
İŞTİRAKÇILAR ..... II
1. Ad günü üçün güllər ..... 1
2. YENİ NƏSİL ..... 4
   A. Millətin yaranışı ..... 4
   B. İnqilabı necə etmə(mə)li ..... 7
   C. "Dəyişikliyin özü olmaq" ..... 12
   D. İtirilmiş Respublikanın xatirələri ..... 14
   E. Uzunqulaqların hüquqları ..... 16
3. REPRESSİYA ..... 20
   A. Emin və Adnan necə həbsə düşdülər ..... 20
   B. Məhkəmə şousu ..... 22
4. DİSSİDENTLİYİN GƏLƏCƏYİ ..... 25
   A. Avtoritar stabillik və Avropa Şurası ..... 25
   B. Buz sınır ..... 31



*Bu tədqiqat Açıq Cəmiyyət Think Tank fondu tərəfindən dəstəklənmişdir. Bütün fikirlər və nəticələr ESİ-ya məxsusdur.*

# XÜLASƏ

Son illərdə Qafqaz Respublikası, 1991-ci ildən müstəqilliyini əldə etmiş Azərbaycan sürətli iqtisadi dəyişikliklə üz üzə qaldı: sıçrayışlı neft və qaz gəlirləri hesabına şəhər tikinti bumu yaşayırdı. Xəzər dənizindəki ölkənin sərvətinin mənbəyi olan yeni neft istehsal edən mədənləri və 2006-cı ilin Mayından tikilmiş Tiflisə və Türkiyənin Aralıq dənizi sahillərinə qədər uzanan 1776 km-lik borunu görmək olar. Təhsilli gənc Azərbaycanlılar üçün bu sıçrayış çoxlu yeni imkanlar yaratmışdı. Dağılmaqda olan kommunist imperiyasında doğulmuş, mürəkkəb keçid dövründə yaşayaraq xaricdə təhsil almaq və səyahət etmək kimi yeni imkanlardan yararlanan və geri döndükdən sonra gənclər beynəlxalq təşkilatlar, xarici şirkətlər və yaxud Azərbaycanın yerli təşkilatlarında çalışmaq imkanı əldə edirdilər.

2009-cu ildə xuliqanlıq ittihamı ilə saxta məhkəmə nəticəsində həbs edilmiş iki gənc Azərbaycanlı fəal Adnana Hacızadə və Emin Milli bu nəslin nümayəndələridir. ABŞda təhsil almış Adnan daha sonra Azərbaycanın enerji sektorunda ən böyük səhmdarlardan biri olan British Petroleum şirkətində iş tapmışdı. Almaniyada hüquq təhsili alan Emin Bakıya geri dönərək müxtəlif beynəlxalq təşkilatlarda işləmişdi. Bir çoxları kimi vətənlərində günü gündən artan avtoritarlıqdan narahat olmağı bir kənara qoymaq əvəzinə onlar demokratiya fəalları oldular. Azərbaycanın yeni qızıl əsrindəki artan qeyri bərabərliyə göz yummaq əvəzinə onlar ölkələri ilə Qərb arasındakı demokratik fərqlərdən narahat olmağa başladılar. Eminin 2009-cu ildə Kolumbiya Universitetindəki çıxışı zamanı dediyi kimi, korrupsiya bütün sahələri əhatə etdikcə Azərbaycandakı avtoritar rejim də güclənir: "Müxalifət qüvvələrin təhdid etmək və müstəqil ictimai qrupların yaranmasının qarşısını almaq üçün rejim özünün repressiya aparatını daha da gücləndirir." Bir neçə ay sonra isə Emin və Adnan həbs olundular.

Bununla belə Avropa hökumətləri, ABŞ və beynəlxalq təşkilatlar- xüsusilə Avropa Şurası, Avropanın ən qədim beynəlxalq demokratiya klublarından biri- 10 il əvvəl Avropa Şurasına qoşulan Azərbaycandakı artan repressiyanı nəzərə almaqda uğursuzluğa düçar olmuşdular. Buna baxmayaraq Emin və Adnan kimi gənc Azərbaycanlılar rejimi laxlada bilmişlər. Onların məqsədi özlərinə, dostlarına və bütün dünyaya hətta dünyanın bu küncündə, Putin Rusiyası və Əhmədinecat İranı arasında sıxılıb qalmış bir ölkədə demokratik etiraz haqqına və ifadə azadlığına –və bunların hər ikisindən qorxanl digərlərinə- inananların olduğunu çatdırmaq idi.

1980-ci illərin əvvəllərində yazdığı əsərlərində Timoti Qarton communist Çexoslovakiyasını "nazik buz qatıyla örtülmüş göl" kimi təsvir edərək, bildirir ki, "Bu qat tərpənmir. Lakin buzun altında filosof-fəhlələr, pəncərə təmizləyən jurnalistlər və gecə növbətçisi olan rahiblər arasında həyat hərəkətdədir" Mətbuat dəyişmişdir.Bu gün dissidentlər artıq çap makinələrində 12 nüsxədə samizdat ədəbiyyat çap etməyə məcbur deyillər. Bunun yerinə onlar bloq yazıları yazır və Facebook vasitəsilə ünsiyyət qururlar. Fundamental dinamika isə özünün normaları və dəyərləri ilə dəyişməz olaraq qalmışdır.

Misir, Tunis və Orta Şərqdə baş verənlərin hamısını bir hadisə kimi qiymətləndirərkən Azərbaycandakı elitanın gücünün də onların özlərinin düşündükləri qədər güclü olmadığını təxmin etmək olar. Onların yaratdığı parlaq görüntünün altında liderlərdən hüquqların əvəzində əl payı və demokratiya əvəzinə stabillikdən daha çox şey gözləyən bir nəsil yaşayır. Bu Azərbaycanın yaxın gələcəkdə Avropanın ən demokratik ölkəsinə çevriləcəyi ilə bağlı vədlərə ümidini itirməyən bir nəsildir. Onların göstərdikləri səyləri xüsusilə demokratik standartların üzvləri arasında təmin edilməsini üzərinə öhdəlik kimi götürmüş Avropa Şurası kimi təşkilatlardan dəstək almağa layiqdir. Nəticə olaraq, ölkənin öhdəlik olaraq götürdüyü qanunlara hörmət etmək Azərabycan hökumətinin öz maraqlarına uyğun olardı.

II

## İŞTİRAKÇILAR



Əbülfəz Elçibəy (1938-2000)
Müstəqil Azərbaycanın ilk seçilmiş prezidenti (1992-1993)



Hikmət Hacızadə (1954)
Müstəqil Azərbaycanın Moskvadakı ilk səfiri, liberal siyasi şərhçi



Heydər Əliyev (1923-2003)
Azərbaycanın ikinci seçilmiş prezidenti (1993-2003)



İlham Əliyev (1961)
Azərbaycanın üçüncü seçilmiş prezidenti (2003-cü ildən bu günə qədər)



Adnan Hacızadə (1983)
Azərbaycanlı fəal və dissident

Emin Milli (1979)
Azərbaycanlı fəal və dissident


Eynulla Fətullayev



Emin Hüseynov


Elmar Hüseynov


Qənimət Zahid


Nigar Fətəli


Erkin Qədirli


Arzu Qeybullayeva


Əli Novruzov

**Ruslan Bəşirli**, Yeni Fikir gənclər təşkilatının keçmiş sədri, 2005-ci ildən bəri həbsdədir

**Eynulla Fətullayev**, journalist, terrorizm və narkotik saxlama ittihamları ilə həbs edilmişdir,

**Elmar Hüseynov**, Monitor jurnalının keçmiş redaktoru, 2005-ci ildə güllələnərək öldürülmüşdür.

**Emin Hüseynov**, keçmiş journalist və müxalif siyasətçi, Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutunun rəhbəri, 2003 və 2008-ci illərdə döyülmüşdür

**Qənimət Zahid**, Azadlıq qəzetinin redaktoru, xuliqanlıq ittihamı ilə 2007-ci ilin Noyabrından 2010-cu ilin Martına qədər həbs edilmişdir

**Nigar Fətəli**, blogger, bloqu *Fighting Windmills? Go on*

**Erkin Qədirli**, hüquqşünas və fəal, Emin Millinin dostu

**Arzu Qeybullayeva**, blogger, bloqu *Flying Carpets and Broken Pipelines*

**Vəfa Cəfərova**, İstanbulda yaşayan gənc fəal

**Əli Novruzov**, blogger, bloqu *In Mutatione Fortitudo*

## 1. AD GÜNÜ ÜÇÜN GÜLLƏR

Azərbaycanın keçmiş prezidenti Heydər Əliyevin adı Sovet İttifaqından kənarda yaşayan insanlara çox da tanış olmaya bilər. Lakin Azərbaycana gələn istənilən şəxs bu adla ən qısa zamanda tanış olur. Bakıya, ölkənin paytaxtına gələn ziyarətçilət Heydər Əliyev adına Beynəlxalq Hava Limanında yerə enirlər. Şəhərə çatmaq üçün hər iki tərəfi Azərbaycanda təhsil və mədəniyyət məsələləri ilə bağlı tədbirlərin bir nömrəli sponsoru olan Heydər Əliyev Fondunu reklam edən plakatlarla bəzədilmiş Heydər Əliyev prospekti ilə irəliləmək lazım gəlir. Bakının mərkəzinə doğru irəlilədikcə şəhərin Heydər Əliyev adına ən böyük parklarından biri və onunla üzbəüz yerləşən Heydər Əliyev adına konsert sarayını görmək olar.

Azadlıq Radiosunun məlumatına əsasən keçmiş prezidentin adını daşıyan muzey və mərkəzlərin sayı 60-a yaxındır. (Belə mərkəzlərdən biri olan Heydər Əliyev İrsini Araşdırma Mərkəzi onun irsini araşdırmaq məqsədilə yaradılmışdır.)[1] Əliyevin heykəlləri və üzərində onun şəkilləri olan plakatlar hər yerdədir. Hər bir hökumət idarəsində Azərbaycanı 2003-cü ildən bəri idarə edən oğlu İlham Əliyevlə yanaşı Heydər Əliyevin şəkli asılır. Mövzunun nə olmasından asılı olmayaraq Azərbaycan hökumətinin rəsmiləri öz nitqlərinə ata Əliyevin nailiyyətlərini sadalamaqla başlayırlar. Diplomatik protokol qaydalarına görə xarici nümayəndə heyətləri onun qəbrini ziyarət etməlidir.

1940-cı ildə MTK-nın sıralarına daxil olan veteran siyasi lider Heydər Əliyev Moskvaya köçərək Politbüronun (Sovet Kommunist Partiyasının ən ali icraedici orqanı) ilk müsəlman üzvü və SSRİ baş katibinin müavini olmazdan əvvəl 1969-1982-ci illərdə Sovet Azərbaycanını idarə etmişdir. 1987-ci ildə, Mixail Qorbaçovla münasibətləri pisləşən Əliyev Moskvadakı işini itirərək, 1990-cı ildə Ermənistan, İran və Türkiyə ilə əhatə olunmuş Azərbaycan ərazisi olan doğma vətəni Naxçıvana qayıtdı.

1991-ci ilin avqustunda Azərbaycanın kommunist liderləri dağılmaqda olan Sovet İttifaqından müstəqilliklərini elan etdilər. 1992-ci ildə ilk rəqabətli prezident seçkiləri keçirildi. Seçkilərdə qalib gələn xalq Hərəkatının lideri Əbulfəz Elçibəyə bərbad iqtisadi vəziyyət və nəticəsində Azərbaycanın ağır zərərlər gördüyü, Ermənistan ilə Dağlıq Qarabağ uğrunda gedən müharibə miras qalmışdı. 1993-cü ildə Elçibəyə qarşı qiyam baş verdi.[2] Elçibəy özü də istəmədən qiyamçılarla danışıqlar aparmaq üçün Heydər Əliyevi Bakıya dəvət etməli oldu. 1993-cü ilin iyununda parlamentin sədri kimi kürsüyə qalxan Əliyev qiyamçıların lideri ilə danışıqlar apararaq onu baş nazir vəzifəsinə təyin etdi. O, həmçinin Elçibəyə etimadsızlıqla nəticələnən referendumun keçirilməsinə nail oldu.[3] Artıq prezident olmadığını qəbul etmək istəməsə də, Elçibəy müqavimət göstərmədən ömrünün qalan hissəsini doğma kəndində keçirdi.[4]

---

1 "Heydər Aliyev adına…" Şahnaz Bəylərqızı, 7 Oktyabr 2010, Azadlıq Radiosunun veb səhifəsi, http://www.azadliqradiosu.az/content/article/2183208.html.

2 Tomas Qoltz, Azərbaycan Gündəliyi : Azmış Reportyorun neftlə zəngin, müharibə dağıntıları yaşayan, post Sovet respublikasındakı macəraları (*Azerbaijan Diary: A Rogue Reporter's Adventures in an Oil-Rich, War-Torn, Post-Soviet Republic),* M.E. Şarp, 1998, səh. 243, həmçinin Çarlz van der Lyuvun Azərbaycan: *Kimliyin araşdırılması*, Palgrave Macmillan, 2000, səh. 186.

3 Çarlz Kinq, *Azadlıq Kabusu. Qafqazın Tarixi (The Ghost of Freedom. A History of the Caucasus),* Oxford University Press, 2008, səh. 226-228.

4 Elçibəy 1996-cı ildə verdiyi müsahibədə demişdir:" 1997-ci ilin İyununa qədər mən *de jure* olaraq özümü Azərbaycanın prezidenti hesab edirdim. Mən xalq tərəfindən seçilmişdim və hər hansı rəsmi istefa sənədini imzalamaqdan imtina etmişdim." "Mən azad insane olacağam", *Uncaptive Minds,* vol. 9, no. 1-2, 1997, səh. 119.

1993-cü il oktyabr;n 3-də Heydər Əliyev 98.8 faiz səs çoxluğu ilə Azərbaycanın yeni prezidenti seçilmişdir.[5] O zaman *The New York Times* qəzetinin yazdığı kimi, “Sovet sisteminin mükəmməl övladı” olan Əliyev özünü “anti-Sovet Azərbaycan milliyyətçisi” olaraq təqdim etməyə nail ola bildi. [6] Növbəti onillik ərzində Əliyev bütün gələcək parlament seçkilərini udan Yeni Azərbaycan Partiyasından ibarət de-fakto birpartiyalı rejim qurmuşdur. O, Elçibəyin Azərbaycanı MDB-dən çıxarmaq qərarının və gələcəkdə Azərbaycan və İranın şimalındakı Azərbaycan regionlarının birləşməsi ilə bağlı maraqlarının əksinə olaraq Rusiya və İranla əlaqələri daha da yaxşılaşdırdı. 1994-cü ildə Ermənistanla atəşkəs razılaşması imzaladı. (Daha əvvəlki üç lider Ermənistanla müharibədə verilən itkilər fonunda öz güclərindən məhrum olmuşdular.[7]) O, British Petroleum tərəfindən idarə olunan beynəlxalq konsorsiumla Xəzər dənizində neftin istismarı ilə bağlı böyük bir müqavilə imzalayaraq Qərbin neft və qaz şirkətləri üçün etibarlı bir ortaq olduğunu sübut etmiş oldu. Heydər Əliyev 2003-cü ilin dekabrına-ölümünə bir neçə həftə qalana qədər prezident kürsüsündə qalmış və hakimiyyətdə oğlu İlham tərəfindən əvəzlənmişdir. Bir təhlilçinin qeyd etdiyi kimi Əliyevin diqqətəlayiq karyerasına nəzər salsaq, o “1969-cu ildən bəri, 1987-1993-cü illər arasındaki 6 illik məsafəni nəzərə almaqla, 34 il ərzində Azərbaycanın ali hakimi olmuşdur”.[8]

Bu gün keçmiş prezidentin şərəfinə iki dövlət bayramı qeyd olunur. 1997-ci ildə Əliyevin Prezident Əbülfəz Elçibəyi kənarlaşdıraraq parlamentin sədri olduğu gün -15 iyunun (1993) “Milli Qurtuluş Günü” kimi qeyd olunması qərara alındı.[9] Əliyevin ölümündən sonra isə, onun ad günü də qeyd olunmağa başladı. “Gül bayramı” kimi tanınan bu gün həm də Azərbaycanın ən əhəmiyyətli dövlət bayramlarından biridir. Hər il mayın 10-da xarici ölkələrdən alınmış güllər Bakı küçələrini bəzəyir, atəşfəşanlıq səmanı işıqlandırır və Bakı bulvarında konsertlər keçirilir. 2009-cu ildə Gül bayramı, 1993-cü ildən bəri özünün ən təhlükəsiz anlarını qeyd edən rejimin yubileyi şərəfinə xüsusi təmtəraqla keçirildi. 2008-ci ildə keçirilən Prezident seçkiləri oğul Əliyevin rəqabətsiz idarəçiliyini təmin etdi. 89 faiz səs qazanan namizəd Əliyevin qarşısında heç bir ciddi maneə müşahidə olunmadı.[10] Bunun nəticəsi olaraq 2009-cu ilin martında keçirilən referendum prezidentin 2 dəfədən çox seçilməsinə qoyulan məhdudiyyət aradan qaldırdı və bununla da İlham Əliyevin məhdudiyyətsiz olaraq hakimiyyətdə qalmasını təmin edən imkanlar açdı. Göründüyü kimi bu rəqabətsiz gücün kulminasiyasında təzahür edən hakimiyyət idi.

Eyni zamanda 2009-cu ildə keçirilən Gül bayramı rejimin zəif nöqtələrini aşkara çıxarmağı bacaran Azərbaycanın gənc aktivistlərindən ibarət kiçik qrupların gücünü ortaya qoydu. Gənc tənqidçilərin 2009-cu il may etirazlarında iştirak etmələri üçün çoxlu sayda səbəbləri var idi. Yerli mətbuatda gəzən şaiyələrdən biri Gül Bayramı üçün təqribi 14 milyon avroya başa gələn,

[5] Svant E. Kornell, *Azərbaycan müstəqillik qazanandan bəri* (*Azerbaijan Since Independence*), M.E. Şarp, 2011, səh. 90. Rəsmi nəticə 96 faiz idi. Əliyevdən başqa, iki tanınmayan namizəd mübarizə aparırdı.. Some Tomas Qolts da daxil olmaqla, bəzi analitiklər nə üçün Əliyevin seçkilərdə hər bir halda qalib olacağını bilə bilə bu cür “Brejnevsayağı” fiqurları meydana çıxarmaq zərurəti hiss etdiyini anlamağa çalışırdılar.

[6] New York Times, “Keçmiş Kreml Fiquru Azərbaycanda Hakimiyyətə Qayıdır”, 16 İyun 1993. http://www.nytimes.com/1993/06/16/world/ex-kremlin-figure-returns-to-power-in-azerbaijan.html.

[7] 1993-cü il Elçibəyin hakimiyyətdən getməsinə qədər Azərbaycanın son iki kommunist lideri Əbdürrəhman Vəzirov və Ayaz Mütəllibov Dağlıq Qarabağ konfliktində döyüşlər zamanı baş vermiş itkilər fonunda hakimiyyətlərini 1990 və 1992-ci illərdə itirmişdilər..

[8] Alek Rəsizadə, “Azərbaycan Heydər Əliyevdən sonra” (“Azerbaijan after Heydar Aliev,”) *Nationalities Papers*, vol. 32, no. 1, Mart 2004, səh. 139..

[9] “Azərbaycan Milli Qurtuluş Gününü qeyd edir”, Trend.Az, 15 İyun 2010, http://en.trend.az/news/official/chronicle/1703321.html.

[10] ATƏT/DTİHB, “Azərbaycan Respublikası, Prezident Seçkiləri, 15 Oktyabr 2008. ATƏT/DTİHB seçki müşahidə missiyasının Yekun Hesabatı, Varşava, 15 Dekabr 2008, səh. 29.

81 ölkədən 1.5 milyon gülün idxal edilməsi barədə idi.[11] Digər bir səbəb isə bayram şənliklərinin Bakı Neft Akademiyasında Gürcüstan əsilli azərbaycanlı killerin 12 tələbəni, müəllimləri və sonra da özünü güllələməsi nəticəsində baş verən faciədən 10 gün sonra keçirilməsi idi. Lakin etirazçıların narazılığı daha dərin idi. Prezidentlik dövrünə qoyulan məhdudiyyəti aradan qaldırmaqla 2009-cu il mart referendumu İlham Əliyevin atasının yolunu davam edəcəyi və hakimiyyətini daha da möhkəmlədərək on illərlə hakimiyyətdə qalacağı ehtimalının mümkünlüyünü ortaya çıxardı. Bir çox gənc azərbaycanlının narahatçılığını bölüşən Cənubi Qafqaz üzrə ekspert Segey Markedonov yazır:

> "Qafqaz ölkəsi simvolik bir keçidə imza atdı. Lakin Novruzun əksinə olaraq [*yazda qeyd olunan milli Yeni İl bayramı*], bu bahardan qışa (dövlət institutları və onların gücünü nəzərə alsaq, erkən bahardan deyə bilərik) olan keçiddir. Dövlət başçısının şəxsi gücü praktik olaraq məhdudiyyətsiz olacaqdır."[12]

10 mayda Bakı küçələrində qara geyimli gənclərdən ibarət kiçik qruplar peyda olmağa başladı. 30 adamdan ibarət, adətən Azərbaycanlıların yas mərasiminə gətirdikləri qərənfilləri əllərində tutan bir qrup gənc Heydər Əliyev Parkının yaxınlığındakı Konservatoriyanın pilləkənlərində yığışmışdı.[13] Minlərlə insanın öncəki günlərdə etdiyi kimi, qrup da Dövlət Neft Akademiyası tərəfə irəliləyərək gülləri Akademiyanın pilləkənləri üzərinə qoymağı qərara aldı.[14]

Lakin bunu etməyə heç macal tapmamış qrup üzvləri mülki geyimli polislər tərəfindən saxlanılaraq həbs edildilər. Həbs olunanlar arasında Qərbdə təhsil almış Azərbaycamlıları bir araya gətirən demokratik yönümlü Məzunlar Şəbəkəsinin (AN Şəbəkəsi) qurucusu olan 29 yaşlı Emin Milli, Gənclərin Atlantika Əməkdaşlıq Təşkilatının (YATA) qurucusu 31 yaşlı Rəşad Şirin və Məzunlar Şəbəkəsində aktiv olan blogger Nigar Fətəli də var idi.[15] Emin Millinin sözlərinə görə polis fəallara həbsləri ilə bağlı hər hansı bir səbəb göstərə bilmirdi və yaxud bunu etmək istəmirdi.[16] Hadisə iştirakçılarından bəziləri etirazın əks olunduğu videoları internetdə yerləşdirdi. Videoların bəzilərində Emin Milli izləyiciləri öz dostlarını və qohumlarını bu etirazlar barədə məlumatlandırmağa çağırır.[17] Sonralar bəziləri bu etirazların onun tərəfindən təşkil edildiyini düşünürdü. O isə sadəcə olaraq Facebook-da başqaları tərəfindən edilən çağırışlara cavab vermişdi.[18]

Gənc insanlardan ibarət digər qruplar da müxtəlif yerlərdə etiraz edirdilər. Bəziləri Sahil parkının önündə fit çalır, digərləri isə Gül bayramında axşam təşkil olunmuş konsert zamanı arxalarını səhnəyə çevirmişdilər. Onların arasında digər gənclər hərəkatı-OL-un qurucusu olan 25 yaşlı

---

11 "Gül bayramına xərclənən pullar niyə açıqlanmır?", Maarif Çingizoğlu, 13 May 2009, http://www.azadliqradiosu.az/content/article/1730611.html.

12 Sergey Markedonov, "Azərbaycan: Pisdən daha Pisə doğru" ("Azerbaijan: From Bad to Worse"), *Open Democracy*, 30 Mart 2009, http://www.opendemocracy.net/article/email/azerbaijan-from-bad-to-worse. .

13 Gül Bayramının təsviri və şəkillərlər Arzu Qeybullayevanın bloqunda tanış olmaq olar, "Was it really worth it?", http://flyingcarpetsandbrokenpipelines.blogspot.com/2009/05/was-it-really-worth-it.html.

14 Əli Novruzovun bloqu *In Mutatione Fortitudo*, "Holiday of Flowers: 10 May Saga", 14 May 2009, http://blog.novruzov.az/2009/05/holiday-of-flowers-10-may-saga.html.

15 Nigar Fətəlinin 2009-cu ilin Noyabrında açdığı ingilisdilli "Fighting Windmills? Go On". Onun keçmiş bloqunun ünvanı http://fatalin.blogspot.com/. Həmçinin rus dilində də bloq aparmışdır ("Don Quixote").

16 Arzu Geybullayeva, "Azərbaycanda Gül Bayramı" ("Celebrating Flower Day in Azerbaijan"), *Osservatorio Balcani e Caucaso*, 12 May 2009, http://www.balcanicaucaso.org/eng/Regions-and-countries/Azerbaijan/Celebrating-Flower-Day-in-Azerbaijan.

17 Əli Novruzovun bloqu *In Mutatione Fortitudo*, "Holiday of Flowers: 10 May Saga", *ibid*.

18 Amanda Rivkin, "Keçmiş məhkəmələr: Emin Milli və Azərbaycanın gələcəyi" ("Shown Trials: Emin Milli and the Future of Azerbaijan"), *Fortnight Journal*, 26 Noyabr 2010, http://www.fortnightjournal.com/amanda-rivkin/103-shown-trial/read.html.

Adnan Hacızadə də var idi. Həbs edilənlərin hamısı bir neçə saatlıq saxlanıldı.[19] Bəzi saxlananların dediyinə görə bu ona görə baş verdi ki, onlar sadəcə qara geyimdə idilər.[20] Təxmin edildiyi kimi, Azərbaycanın hökumət mətbuatı etiraz və həbslərə göz yumaraq, diqqəti güllərin nümayiş etdirilməsinə yönəltdi. Etirazçıların sayı atəşfəşanlığa tamaşa edən yüz minlərlə Bakı sakinləri tərəfindən üstələndi. Yalnız Azadlıq Radiosu polis tərəfindən saxlanılan etirazçılardan onlar buraxıldıqdan sonra müsahibə aldı.[21] Özünə güvənən elita narazılığın bu cür sadə şəkildə ifadə olunmasına əhəmiyyət verməyə bilərdi. Lakin Bakıdakı bu idarəçilər özünəinamdan başqa hər şeyə malik idilər. Gül bayramına qarşı olan etirazlara verilən rəsmi reaksiya xalqın sadiqliyinə əmin olmayan avtoritar hökumətin acizliyini üzə çıxardı. Polis Neft Akedmiyasına gedən yolları bağladı. Etirazçılar izlənməyə başladı. Ümumilikdə 76 nəfər həbs olundu.[22] Polisin araşdırmaları etirazlardan sonra da davam edirdi. Blogger və etirazçılardan biri olan Əli Novruzov 14 may tarixində yazır: " Bu gün atama bizim rayon polisinin istintaq şöbəsindən zəng gəldi– onlar mənim barəmdə iş açırdılar"[23] Nigar Fətəlinin sözlərinə görə etirazlardan iki gün sonra onun evinə gələn polislər anasını sorğu-suala tutmuşdular.[24] İki ay sonra, etirazçılardan ikisi-Emin Milli və Adnan Hacızadəni tutmaq və onları xuliqanlıqda təqsirləndirmək üçün münasib bəhanə tapıldı.

Kiçik addımlar atmasına baxmayaraq, gənc azərbaycanlılardan ibarət kiçik bir qrup avtoritar rejimi təşvişə salmağı bacarmışdı. Onların məqsədi özlərinə, dostlarına və bütün dünyaya hətta dünyanın bu küncündə, Putin Rusiyası və Əhmədinejat İranı arasında sıxılıb qalmış bir ölkədə demokratik etiraz haqqına və ifadə azadlığına inananların və eyni zamanda bunların hər ikisindən qorxanların olduğunu çatdırmaq idi.

## 2. YENİ NƏSİL

### *A. Millətin yaranışı*

Adnan Hacızadənin Bakı ziyalılarının ailəsində doğulduğu 1983-cü ildə Azərbaycan 15 Sovet Sosialist Respublikaları İttiffaqına (SSRİ) daxil idi. Adnanın valideyinləri, hər ikisi Bakıdan olan Bahar və Hikmət Hacızadələr Moskvada təhsil alarkən tanış olmuşdular. Bakının bir çox orta təbəqədən olan ailələrində olduğu kimi, bu evdə də rus dilində danışılırdı və Adnan iki dili eyni zamanda öyrənmişdi. Onun atası Hikmət Hacızadə 1983-cü ildə fizika elmləri doktoru adını almışdır. SSRİ-yə uzun müddətdən bəri rəhbərlik edən Leonid Brejnev vəfat etmiş və daha dinamik lider, keçmiş MTK rəsmisi onu Kommunist Partiyasının baş katibi kimi əvəz etmişdi.[25]

---

19 Arzu Qeybullayevanın bloqu, "Detailed account of the events of 10 May and prior", 12 May 2009. http://flyingcarpetsandbrokenpipelines.blogspot.com/2009/05/was-it-really-worth-it.html.

20 Sülh və Demokratiya İnstitutnun hesabatı, "Tələbə etirazının yatırılmasının Azərbaycanda sədası", 15 May 2009, http://www.unhcr.org/refworld/docid/4a125930c.html.

21 Əli Novruzovun bloqu *In Mutatione Fortitudo*, "Holiday of Flowers: 10 May Saga", *ibid*.

22 Arzu Qeybullayevanın bloqu, "10 May hadisələrinin ətraflı xronologiyası" ("Detailed account of the events of 10 May and prior"), *ibid.*

23 Əli Novruzovun bloqu *In Mutatione Fortitudo*, "Güllərin Bayramı: 10 May Xronikası" ("Holiday of Flowers: 10 May Saga")

24 Nigar Fətəlinin bloqu, *Fighting Windmills? Take a Pill*, "Həbslərdən iki gün sonra"*(* "Two Days after Arrests"), 12 May 2009, http://fatalin.blogspot.com/2009/05/two-days-after-our-arrest-1.html.

25 Yuri Andropov, həm də Heydər Əliyevi Politbüroya gətirən şəxs idi. Keçmiş MTK lideri olaraq o ciddi problemləri olan sistemin islahatlara ehtiyacı olduğunu düşünürdü, lakin bunu mərkəzi hakimiyyəti gücləndirməklə etmək lazım olduğuna inanırdı. Iki illik hakimiyyətdən sonra, o, 1984-cü ildə gözlənilməz şəkildə vəfat etdi.

Sovet İttifaqının parçalanmağa doğru getməsinin və yaxud iki nüvə supergücü arasındakı Soyuq müharibənin sona yetməsinin heç bir əlaməti görünmürdü.

Ümumilikdə Azərbaycanda isə gələcək təhlükənin əlamətləri görünməyə başlamışdı. Nasist Almaniyasına qarşı müharibənin başlanğıcında Sovet İttifaqında istehsal olunan neftin 75%-ni təmin edən Azərbaycanın neft sənayesi tənəzzülünü yaşamaqda idi. Ardıcıl olaraq bu sahəyə qoyulan sərmayənin azalması (İkinci Dünya Müharibısindən sonra sərmayə qoyuluşu Rusiyadakı neft sahələrinə yönəldilmişdi) və dənizdə istismara dair texniki biliklərin çatışmazlığı məhsuldarlığın səviyyəsinin aşağı düşməsi ilə nəticələndi.[26] Neft Daşları adlanan və bir zamanlar Sovet neft sənayesinin fəxri sayılan Xəzər dənizində quraşdırılmış qazma qurğuları yarı həcmdən də az məhsul verirdi. Köhnə və paslanmış neft mədənləri, borular və yaşayış mənzilləri, yollar dənizin üzərində yerləşmişdir. Ölkədə ətraf mühitin vəziyyəti, xüsusilə Bakının yaxınlığında yerləşən sənaye şəhəri Sumqayıtda acınacaqlı idi. 1984-cü ildə, Adnan Hacızadənin dünyaya gəlməsindən bir il sonra, Azərbaycan hökuməti məcburi ət və yağ talonları tətbiq etməyə başladı.[27]

Adnan beş yaşına çatdığı vaxt bütün SSRİ məkanı və Sovet Azərbaycanı laxlamağa başladı. 1988-ci ildə Baltikyanı ölkələrin xalq cəbhələri kütləvi etirazlar keçirdilər. 1988-ci ilin əvvəlində Azərbaycanın daxilində yerləşən Dağlıq Qarabağ ərazisində yaşayan ermənilər bu regionun qonşu Ermənistanla birləşdiyini elan etdilər. Bir həftə sonra baş vermiş qanlı anti-erməni hadisələri onlarla insanın öldürülməsi və minlərlə erməni mənşəli sakinin burdan köçməsi ilə nəticələndi. Vəziyyət gərginləşdikcə və qarşıdurmalar artdıqca azərbaycanlıların Ermənistandan, ermənilərin isə Azərbaycandan kütləvi şəkildə köçürülməsi başlandı.

İdealist Azərbaycan millətçisi Əbülfəz Elçibəy sovetlərə qarşı yönəlmiş milli hərəkatın lideri kimi meydana çıxmışdı. O, Tulunilər – IX əsrdə Misirdə bir türk məmuru tərəfindən yaradılmış dövlət haqqında doktorluq dissertasiyası yazmışdı. Elçibəy Sovetlər əleyhinə göstərdiyi fəaliyyətinə görə 1970-ci illərdə həbs edilmişdi. 80-ci illərin sonuna yaxın Elçibəy Adnanın atası Hikmət Hacızadə ilə birgə Elmlər Akademiyasında işləyirdi. 1988-ci ildə Elçibəy, Hacızadə və digər intellektuallar - tarixçilər, yazıçılar, şərqşünaslar - Azərbaycan Xalq Cəbhəsinin əsasını qoydular. Hikmət Hacızadə Cəbhənin qəzeti olan *Azadlıq/Svoboda* qəzetinin baş redaktoru və Estoniya Xalq Cəbhəsindən ilhamlanaraq yazılmış nizamnamənin müəlliflərindən biri idi.[28] 1988-ci ilin noyabrında Bakıda kütləvi etiraz aksiyaları başlamışdı. Balaca Adnan Hacızadənin o vaxt bundan xəbəri olmasa da, atasının işinə tamaşa edərək müstəqil Azərbaycan dövlətinin cəfalar hesabına yarandığını görürdü. Bir qədər sonra xatırladığı kimi,

> "Yeni Azərbaycan dövləti sözün əsl mənasında bizim qonaq otağında qurulmuşdu. Elçibəy, mənim atam və başqaları bura yığışaraq saatlarla siqaret çəkərək söhbət edərdilər… Mənim onda beş yaşım vardı və men tez tez otağa girib çıxırdım. 1988-ci ildə atam mənim əlimdən tutaraq Xalq Cəbhəsinin böyük toplantısına gətirdi və mən başlanğıcdan bəri hər şeyin şahidi oldum."[29]

---

[26] Tomas de Vaal, *Qafqaz: Giriş* (*The Caucasus: An Introduction)*, Oxford University Press, 2010, səh. 170. De Vaal qeyd edir ki, "Sovetlər dağılan zaman Azərbaycan Sovet neftinin cəmi 3 faizini istehsal edirdi"

[27] Odrey Altştad, Azərbaycan Türkləri: Güc və Rusiyanın hökmranlığı altında qalan kimlik (The Azerbaijani Turks: Power and Identity under Russian Rule), Hoover Institution Press Publication 410, April 1992, səh. 183. Azərbaycanda Sibirdəki neft sahələrini lazımi avadanlıqla təmin etməkdən imtina edilməsi ilə bağlı da çoxsaylı tətillər keçirilmişdi (Altştad 192).

[28] Hikmət Hacızadə ilə ESI-ın müsahibəsi , 1 Dekabr 2010.

[29] Adnan Hacızadə ilə ESI-ın müsahibəsi, Bakı, Dekabr 2010.

1989-cu il iyulun 16-da keçirilən ilk Konqressi zamanı Azərbaycan Xalq Cəbhəsi "Azərbaycanın müstəqilliyini təmin etmək" və " Azərbaycanda azad və demokratik dəyərləri bərqərar etmək" üçün öhdəlik götürdüyünü elan etdi.[30] 1990-cı ilin yanvarında, Sovet rəhbərliyi "İslam fundamentalizmi"nin ehtimal olunan hədəsi və ictimai asayişin pozulmasının, zorakılığın qarşısını almaq zərurətinin olduğunu əsas gətirərək xalq hərəkatını dağıtmaq üçün Bakıya qoşun yeritdi. Nəticədə 200-dən çox Azərbaycanlı həlak oldu və Elçibəy də daxil olmaqla Xalq Cəbhəsinin bir çox lideri həbs edildi. 1990-cı ilin yanvar hadisələri Sovet hakimiyyətinin olan-qalan legitimliyini də dağıtdı. "Qara Yanvar"dan bir il yarım və Prezident Qorbaçova qarşı uğursuz çevrilişdən sonra bir neçə Sovet Respublikası öz müstəqilliyini elan etdi. Azərbaycanın Ali Soveti də 1991-ci il avqustun 10-da eyni addımı atdı. 1992-ci ilin mayında Xalq Cəbhəsinin tərəfdarlarından ibarət kütlə parlament binasına hücum edərək Azərbaycanın sonuncu kommunist idarəçisini hakimiyyətdən getməyə məcbur etdi. 1992-ci ilin iyununda demokratik şəkildə keçirilən prezident seçkilərində Əbülfəz Elçibəy 55 faiz səs çoxluğunu qazanaraq qalib gəldi. Andiçmə mərasimində Elçibəy tərəfdarları 1918-ci ildən 1920-ci ilə qədər mövcud olmuş müstəqil Azərbaycan dövləti olan Azərbaycan Demokratik Respublikasının milli himnini oxudular. Onların yanaqlarından yaş süzülürdü.

Elçibəy prezident olanda və atasını 1992-ci ildə müstəqil Azərbaycanın Moskvadakı ilk səfiri təyin edəndə Adnanın doqquz yaşı vardı. Bir il sonra, Elçibəy hakimiyyətdən ayrıldıqdan və Heydər Aliyev hakimiyyətə qayıtdıqdan sonra Adnanın atası Bakıya döndü. Əliyev hakimiyyətinin bir neçə çevriliş cəhdi və artan iqtisadi xaosla müşaiyət olunan qarışıq ilk illərində Adnan atası ilə birgə fəaliyyət göstərən anti-kommunist fəallarının özlərinə harda səhv etdikləri ilə bağlı sual verdiklərinin şahidi olurdu. Hikmət Hacızadənin 1996-cı ildə yazdığı kimi müstəqilliyin ilk illəri ümumilikdə "milli ideya"nın axtarışına sərf edilmişdi, belə ki, bu cür debatlar bütün keçmiş SSRİ məkanında aparılırdı:[31]

> "Xalq sadə sualların cavabını axtarmağa başlamışdı: Biz kimik? Hansı yeni dəyərləri qəbul etməliyik? Bundan sonra nə edəcəyik?"[32]

Cavablarını axtaran belə suallar çox idi. Etnosentrik türk millətçiliyi ənənəsinə malik olan Xalq Cəbhəsi diqqətini mədəniyyət və kimlik məsələlərinə yönəltmişdi. Elçibəyin yolunu davam etdirən bəzi insanlar Cənubi Azərbaycanda yaşayan azərbaycanlılar da daxil olmaqla bütün etnik azərbaycanlıların birləşdirilməsi məqsədini prioritet sayırdılar.[33] Heydər Əliyev tərəfindən idarə olunan Yeni Azərbaycan Partiyası (YAP) güclü liderlik və ən əsası stabillik prinsipinə əsaslanaraq azərbaycançılığı qabardan iddialı bir ideologiya ortaya qoydu.[34] Heydər Əliyev və onun oğlu və davamçısı olan İlham Əliyevin dövründə prezident administrasiyasının güclü rəhbəri Ramiz Mehdiyev sonralar da azərbaycançılıq ideyasının Putin Rusiyasındakı "suveren

---

30 Azərbaycan Xalq Cəbhəsi və Əbülfəz Elçibəy nihalatsiz.com.

31 Hikmət Hacızadə, "2006-cı ilə sözardı: Güclərin real balansı haqqında", "Qafqaz və Mərkəzi Asiyada təhlükəsizlik və əməkdaşlıq" konfransı üçün hazırlanmış hesabat, Gürcüstan Universiteti, 24 May 1998, səh. 5. http://www.kitabxana.org/site/?name=view&page=1&id=605.

32 Hikmət Hacızadə/ FAR Centre, "Azərbaycan: Milli ideya axtarışında", FAR Centre, 1996. http://www.zerbaijan.com/azeri/hhz7.htm

33 Dağılan dövlət və iqtisadiyyatın fonunda Elçibəyin ilk qərarlarından biri Azərbaycanın rəsmi dilinin "Türk dili " adlandırılması ilə bağlı idi. (1918-1936 cı illərdə olduğu kimi). Dəyişiklik 1992-ci ilin Dekabrında qıbul edilmiş qanunla təsbit edildi. Heydər Əliyev dönəmində dilin adı yenidən "Azərbaycan dili"nə dəyişdirildi. Jacob M. Landau and Barbara Kellner-Heinkele, *Politics of Language the Ex-Soviet Muslim States*, Hurst, 2001, səh. 151.

34 Ceylan Tokluoglu, "post-Sovet Azərbaycanında 1990-cı illərdə milli kimlik, milliyyətçilik və etnikliyin tərifi" ("Definitions of national identity, nationalism and ethnicity in post-Soviet Azerbaijan in the 1990s"), *Ethnic and Racial Studies*, vol. 28, no. 4 İyul 2005, səh. 728, http://intersci.ss.uci.edu/wiki/eBooks/Articles/National%20Identity%20in%20Postco%20AZ%20Tokluoglu.pdf

demokratiya" modelinə uyğun güclü prezidentlik sisteminə malik "məsuliyyətli demokratiya"nı ehtiva etməsi fikrini irəli sürürdü.

Buna baxmayaraq, bəzi liberallar demokratiyanın əhəmiyyətini güclü şəkildə vurğulayırdılar. 1995-ci ildə Musavat partiyasının proqramının layihəsini hazırlayan Hikmət Hacızadə 90-cı illərdə plüralizmi müdafiə edənlər arasında ən məşhur insanlardan biri idi.[35] Onun 1996-cı ildə yazdığı kimi,

> "Qanunun aliliyi prinsipi əsasında qurulan müstəqil dövlətçiliyə gedən yol vətəndaş cəmiyyətinin inkişafından keçir. Bizim məqsədimiz yeni bir diktatura deyil, insan hüquqları və insan ləyaqətinin prioritet hesab edildiyi demokratik bir dövlətin qurulmasıdır. İnsan hüquqları sinfi hüquqlar, dini və milli maraqlardan da üstündür."[36]

Atasının bu yazısından 3 il sonra, 16 yaşlı Adnan Hacızadə ABŞ hökumətinin FLEX təqaüdçüsü kimi bir il orta məktəbdə təhsil almaq üçün ABŞ-a yola düşdü. Digər bir təqaüdü qazanması hesabına isə Riçmond Universitetine daxil olaraq, 2005-ci ildə siyasi elmlər üzrə məzun oldu.

Məzun olduqdan sonra Adnan Azərbaycana qayıtdı. Bakı dəyişmişdi: sıçrayışlı neft və qaz gəlirləri hesabına şəhər tikinti bumu yaşayırdı. Xəzər dənizində neft istehsal edən yeni mədənləri və 2006-cı ilin mayında tikilmiş, Tiflisə və Türkiyənin Aralıq dənizi sahillərinə qədər uzanan 1776 km-lik borunu görmək olardı.[37] Bakı eyni zamanda Adnan kimi daha çox insanı cəlb etməkdə idi: bunlar 20 yaşlarında, dağılmaqda olan kommunist imperiyasında doğulmuş, mürəkkəb keçid dövründə yaşayaraq xaricdə təhsil almaq və səyahət etmək kimi yeni imkanlardan yararlanan və geri döndükdən sonra beynəlxalq təşkilatlar, xarici şirkətlər və yaxud Azərbaycanın yerli təşkilatlarında çalışmaq imkanı əldə edən gənclər idi. Adnan Azərbaycanın enerji sektorunda ən böyük beynəlxalq səhmdarlardan biri olan British Petroleumda daxili əlaqələr üzrə məsul şəxs kimi işə başladı. Xaricdən ölkəyə qayıdan gənclər xaricdə öyrəndikləri hüquq və azadlıqların səviyyəsi ilə öz ölkələrində rast gəldikləri avtoritar rejim arasındakı kontrastdan narahat olmayınca onların karyerası üçün ümidverici cığır açılırdı. Bu isə onların yeni zənginliklərin içərisində artan qeyri-bərabərliyə göz yumması hesabına başa gəlirdi.

## B. *İnqilabı necə etmə(mə)li*

Adnanın Azərbaycana döndüyü 2005-ci il Mərkəzi Avropa və Baltikyanı ölkələrin yolu ilə gedən fərqli bir Azərbaycanı görməyə ümid edənlər üçün gözlənti ili idi. Parlament seçkiləri - Azərbaycanın 2001-ci ildə Avropa Şurasına daxil olandan və İlham Əliyevin 2003-cü ildə hakimiyyətə gəlməsindən sonra keçirilən ilk seçkilər -noyabr ayına təyin olunmuşdu.

1992-ci il prezident seçkilərindən bəri Azərbaycanda keçirilən heç bir seçki demokratik standartlara uyğun olmamışdır. İlham Əliyevin 77 faiz, digər namizəd İsa Qəmbərin isə 14 faiz səs topladığı 2003-cü il seçkiləri isə xüsusilə pis keçmişdi. "Nepotizm" və "tayfa quruculuğu" kimi kəlmələr Qərb mətbuatında tez tez işlədilməyə başladı. Seçki gecəsi və növbəti gün polis

---

[35] Azərbaycanın hazırki Musavat partiyası 1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının hakim partiyasının davamçısı olaraq 1992-ci ildə yaradılmışdır. Partiya yarandığı gündən onun sədri olan İsa Qəmbər Xalq Hərəkatının liderlərindən biri idi. 1993-cü ildən bəri Musavat aparıcı müxalifət partiyasıdır.

[36] Hikmət Hacızadə/ FAR Centre, "Azərbaycan: Milli İdeya Axtarışında", FAR Centre, 1996. http://www.zerbaijan.com/azeri/hhz7.htm.

[37] Boru 2006-cı ilin Mayında işə düşdü .

və daxili təhlükəsizlik qüvvələri tərəfindən törədilən ciddi pozuntular qeydə alındı. Ölkənin paytaxtında müxalifətin keçirdiyi icazəsiz mitinqlər nəticəsində polis bir neçə insanın ölümü, daha çox insanın yaralanması və seçki kommissiyası üzvləri də daxil olmaqla 600-dən çox insanın həbs edilməsi ilə nəticələnən sərt tədbirlərə əl atdı. Hökumətyönlü mətbuatın dövlət çevrilişi üçün konspirativ plan hazırlamaqda günhalandırdığı İsa Qəmbər 25 gün ev dustaqlığına məhkum edildi.[38] ATƏT-in müşahidə missiyasının yekun hesabatında yazıldığına görə seçkilər "ATƏT tərəfindən qoyulan öhdəliklərə və demokratik standartlara cavab verməmişdir".[39]

2005-ci ildə hadisələrin fərqli olacağı gözlənilirdi. 2005-ci il may ayının 10-da, Gürcüstan Qızılgül İnqilabından iki il sonra ABŞ prezidenti Corc Buş Tbilisiyə gəldi. Sevincli kütlənin önündə çıxış edərkən Gürcüstanın qonşularına da ismarıc yolladı:

> "Biz azadlığın Qara Dənizdən Xəzərə, Fars körfəzi və daha uzaqlara qədər yayıldığı tarixi bir zaman kəsiyində yaşayırıq. Burada olduğu kimi dünyanın hər yerində insanlar meydanlara toplaşaraq, bayraqlarını dalğalandırır və Allah tərəfindən onlara bəxş edilmiş azadlıqlarını tələb edirlər və siz bununla fəxr edə bilərsiniz: Onlar sizin misalınızdan ilham alaraq sizin uğurunuzdan ümidləniblər… Sizin Gürcüstanda əkdiyiniz azadlıq toxumları dünyanın hər tərəfində çiçəklənməkdədir."[40]

Ümidli olan yalnız Buş deyildi. 2005-ci ilin iyununda *The Economist* jurnalında "Qarpız İnqilabı: Azərbaycan və Demokratiya-Azərbaycan demokratik inqilablar növbəsində növbəti ola bilərmi?" başlıqlı məqalə çap olundu.[41]

2005-ci ilin mayında Azərbaycan müxalifəti Musavat (İsa Qəmbər), Azərbaycan Xalq Cəbhəsi (Əli Kərimli) və bir az daha kiçik olan Demokrat Partiyasından ibarət Azadlıq blokunu yaratdı. Azadlıq blokunun strategiyası 2004-cü ildə Ukraynada baş verən seçki saxtakarlıqlarına baxmayaraq qalib çıxan liderlər və iştirakçıları olan Narıncı İnqilabdan ruhlanaraq qurulmuşdu. Əliyev rejimini "korrupsiyalaşmış diktatura" kimi hədəfə alan koalisiya narıncı rəngi öz simvolu olaraq qəbul etmişdi.[42] Bəzi müxalifət liderləri seçkilərdə yaxşı nəticələr əldə edəcəklərini gözləyirdilər; digərləri isə seçki qutularında manipulyasiyalar gözləsələr də, bu dəfə seçici etirazının Serbiyada (2000), Gürcüstan (2003) və Ukraynada (2004) olduğu kimi qeyri-zorakı inqilab üçün tətik rolunu oynayacağına ümid edirdilər.

Həm Gürcüstandakı Qızılgül İnqilabı, həm də Ukraynada baş vermiş Narıncı İnqilab zamanı seçkilərin saxta rəsmi nəticələrinə etiraz etməkdə əsas rolu Gürcüstanın Kmara (Kifayətdir) və Ukraynanın Pora (Artıq vaxtdır) hərəkatları oynamışdır. Hər iki təşkilat Serbiyada Slobodan Milosevici devirmiş Otpor təşkilatının təcrübəsindən bəhrələnmişdir. Gənc Azərbaycanlılar da bunu nəzərə aldılar.[43] 2004-cü ilin aprelində Xalq Cəbhəsi Partiyası özünün gənclər təşkilatını,

---

38 Sabina Frayzer, "Azərbaycanda nəsil və demokratiya" ("Dynasty and Democracy in Azerbaijan"), *Open Democracy*, 5 Dekabr 2003. http://www.opendemocracy.net/democracy-caucasus/article_1626.jsp.

39 ATƏT/DİİHB, "Azərbaycan: Prezident Seçkiləri 15 Oktyabr 2003", Seki Müşahidə Missiyasının Hesabatıt, Varşava 12 Noyabr 2003, səh. 1. http://www.osce.org/odihr/elections/azerbaijan/13467.

40 BBC; "Mətn: Buşun Gürcüstandakı çıxışı" ("Text: Bush's speech in Georgia"), 10 May 2005. http://news.bbc.co.uk/2/hi/europe/4534267.stm.

41 "Qarpız İnqilabı: Azərbaycan və Demokratiya-Azərbaycan növbəti demokratik inqilabın ünvanı ola bilərmi?" ("A Watermelon Revolution: Azerbaijan and Democracy – Might Azerbaijan be next in line for a democratic revolution?"), *Economist*, 4 İyun 2005.

42 Anar Vəliyev, "Azərbaycan Parlament Seçkiləri, Uğursuz İnqilab", *Problems of Post-Communism*, vol. 53, no. 3, May/İyun 2006, səh. 22.

43 Məqam hərəkatın üzvləri Murad Həsənli və Emin Hüseynov BBC tərəfindən çəkilmiş, 2005-ci il Noyabr seçkilərindən bəhs edən "İnqilabı necə etməli" adlı sənədli filmdə müsahibə vermişlər. İnqilabı necə etməli (How to plan a revolution) , http://video.google.com/videoplay?docid=-6283659946022683358#.

Yeni Fikri yaratdı. 26 yaşlı Ruslan Bəşirlinin rəhbərlik etidyi hərəkat azad və ədalətli seçkini təbliğ etməyə başladı. 2005-ci ilin əvvəlində digər bir gənclər hərəkatı –Məqam fəaliyyətə başladı. 2003-cü ildə prezident seçkilərini işıqlandıran (və bu zaman döyülən) Emin Hüseynovun rəhbərlik etdiyi, təxminən 200 üzvü olan qrup gələcək seçkilərin yaxşı keçirilməsi üçün ictimai marağın artırılması istiqamətində işləyirdi.[44] Yeni qurulmuş başqa bir təşkilat – "Yox!" da tezliklə fraksiyaya qoşuldu. Təşkilatın şüarları "Qeyri demokratik addımlara Yox! Zorakılığa Yox! Diktator rejiminə Yox!" idi. Bu qrupun rəhbəri, Razi Nurullayev seçkilərdə müstəqil namizəd olaraq iştirak edirdi. O deyirdi: "Saxta seçkilərin tətik rolu oynadığı və bununla da Gürcüstan, Ukrayna və Qırğızıstanda korrupsioner liderlərin devrilməsi ilə nəticələnən bu inqilablar Azərbaycana doğru irəliləyir."[45]

Seçki inqilablarının sehrli formulunun tapıldığını düşünmək gənc fəallar üçün çox cazibədar bir fikir idi. Serbiyadan Ukraynaya qədər bütün gənc fəallar Cen Şarpın qeyri-zorakı etirazların təşkil edilməsi haqqında *Diktaturadan Demokratiyaya doğru*: *Azadlıq üçün konseptual çərçivə* kitabını oxumuşdular. Əslində Birma fəallarına dəstək olaraq yazılmış bu kitab dünyanın 30 dilinə, o cümlədən Azərbaycan dilinə də tərcümə olunmuşdu.[46] Avropalı fəallar da 2002-ci ildə çəkilmiş, serbiyalı Slobodan Miloşeviçin devrilməsindən bəhs edən "Diktatorun Devrilməsi" filmini izləmişdilər. Filmin rejissoru Stiv Yorkun fikrincə Sebiyanın Otpor gənclər hərəkatının təcrübəsini digər ölkələrdə də istifadə etmək mümkündür. O, deyirdi: "Virtual olaraq Otpor tərəfindən işlədilmiş bütün silahlar etirazçılar və müxalif hərəkatlar tərəfindən dünyanın başqa ölkələrində də birbaşa olaraq və ya tədricən qəbul edilə bilər. Bu artıq baş verir."[47]

Azərbaycanın demokratiya tərəfdarı olan fəalları Ukrayna və Gürcüstanın gənclər qrupları ilə əlaqələr axtarmağa başladılar. London İqtisad Universitetindən məzun olaraq Azadlıq blokunun sözçüsü olmaq üçün Bakıya qayıdan Murad Həsənli Kmara Gənclər hərəkatının nümayəndələri ilə görüşmək məqsədilə Gürcüstana səfər etdi. 2005-ci ildə BBC tərəfindən Azərbaycandakı seçkilər barədə çəkilən sənədli filmdə öz azərbaycanlı həmkarlarına konfidensial məsləhətlər ("Aydın bir zəncirvari komandanlığın olması" və "seçkilərin nəticələrini gözləmədən seçkilər bitən kimi qələbəni qeyd etmək" kimi) verən Kmara fəallarını görmək olar.[48] Yeni Fikrin 27 yaşlı lideri Ruslan Bəşirli də demokratiya fəalları ilə görüşmək üçün 2005-ci ilin iyulunda Tiflisə səfər etdi. Yeni Fikir üzvləri də Ukraynanın Pora təşkilatı ilə əlaqələr qurdular.[49]

Bundan narahat olan Azərbaycan hökuməti Ukrayna fəallarının ölkəyə daxil olmasına qadağa qoydu. 2005-ci il avqustun 3-də Ruslan Bəşirli "Erməni kəşfiyyatının təşviqi ilə" dövlət çevrilişində ittiham edilərək Azərbaycan polisi tərəfindən həbs edildi.[50] İttiham maksimum cəza kimi ömürlük həbs tələb edirdi. Daha sonra Bəşirli Vaşinqtonda yerləşən Milli Demokratiya

---

44 Məqam Gənclər Hərəkatı, ABŞ prezidenti Corc Buşa açıq məktub, "Sizin Sözlərinizə arxalanaraq. Azərbaycan gəncliyindən Prezident Corc Buşa çağırış", 27 Aprel 2006, http://www.idee.org/Azerbaijan%20Youth%20Appeal%202006.html.

45 Anar Vəliyev, "Azərbaycan Parlament Seçkiləri, Uğursuz İnqilab", *Problems of Post-Communism*, vol. 53, no. 3, May/İyun 2006, səh. 17-35.

46 Albert Eynşteyn İnstitutu, Cin Şarp, *DİKTATURADAN DEMOKRATİYAYA DOĞRU: Azadlıq üçün Konseptual Çərçivə,* Fevral 2005 Yox Azərbaycan Hərəkatı tərəfindən çap edilmişdir, http://www.aeinstein.org/organizations1aef.html.

47 Stiv York- Diktatorun Devrilməsi filminin müəllifi ilə sual cavab http://www.aforcemorepowerful.org/films/bdd/producer.php.

48 Sənədli film-" İnqilabı necə etməli", http://video.google.com/videoplay?docid=-6283659946022683358#.

49 Anar Vəliyev, "Azərbaycan Parlament Seçkiləri, Uğursuz İnqilab", *Problems of Post-Communism*, vol. 53, no. 3, May/İyun 2006, səh. 24-25.

50 Liz Fuller, "Azərbaycan: Bakı Ermənistan kəşfiyyatını dövlət çevrilişində ittiham edir" ("Azerbaijan: Baku Implicates Armenian Intelligence In Alleged Coup Bid"), *Azadlıq Radiosu,* 5 Avqust 2005, http://www.rferl.org/content/article/1060460.html.

İnstitutunun istəyi ilə hərəkət etdiyini "etiraf etdi".[51] Dövlət televiziyası təkrar-təkrar onun Azərbaycan kəşfiyyatının erməni agenti olduğunu iddia edən bir adamdan $2,000 pul aldığını göstərən videonu nümayiş etdirirdi. Bəzi mətbuat nümunələri də Bəşirlinin, belə qarayaxma kampaniyalarının digər hədəfi olan Xalq Cəbhəsinin lideri Əli Kərimli ilə homoseksual cinsi münasibətlərdə olduğunu yazırdılar.[52] Sentyabrın 12 və 16-da Yeni Fikrin iki sədr müavini Ramin Tağıyev çevriliş ssenarisində iştirakına, Səid Nuri isə Polşada Milli Demokratiya İnstitutu tərəfindən mailliyələşdirilən (yenə də) bir tədbirdə iştirakı zamanı hökumət eleyhinə aldığı instruksiyalarla konspirasiyada günahlandırılaraq həbs edildilər. 2006-cı ildə Bəşirli 7, Ramin Tağıyev 4, Səid Nuri isə 5 illik həbs cəzasına məhkum edildilər.[53]

Seçkilər dövrü yaxınlaşdıqca hökumət haqqında tənqidi fikirlər səsləndirən jurnalistlər də hədəfə alınırdı. 2005-ci il fevralın 24-də Azadlıq qəzetinin redaktoru Qənimət Zahid və qəzetin texniki direktoru Azər Əhmədov, qaçırılaraq Bakıdakı bir restorana gətirilmişdilər. Onlar soyundurulmuş və fahişə olduqları güman edilən qadınlarla kompromat şəkillər çəkdirməyə məcbur edilmişdilər. Onlar döyülmüş və Prezident Əliyev haqqında tənqidi materiallar çap etdiklərinə görə hədələnmişdilər. İki gün sonra hər ikisi azadlığa buraxılmışdı.[54] Tezliklə bu hadisədən sonra, hökumətyönlü mətbuat müxalifətin "mənəviyyatsızlığı"nın nümunəsi kimi Zahid və Əhmədovun bu fotolarını yaydı.[55] 2 mart 2005-ci ildə *Monitor* jurnalının baş redaktoru Elmar Hüseynov evinin qarşısında güllələnərək öldürüldü. Ölümündən əvvəl isə illər ərzində prezident və müdafiə naziri də daxil olmaqla, Hüseynov yüksək rütbəli məmurlar tərəfindən ardıcıl olaraq "böhtan və defamasiya"ya görə ağır cərimələr ödəməyə məcbur edilirdi. 2001-ci ildə Bakı meri Hacıbala Abutalıbova hörmətsizliyə görə 6 ay həbsə məhkum edilmişdi. 10.000-ə yaxın insan Bakıda Hüseynovun dəfnində iştirak etmişdir. Onun qatilləri tapılmamışdır.

Seçkilərə hazırlıq dövründə təhlükəsizlik məsələləri bəhanə gətirilərək görə müxalifət partiyalarının Bakının mərkəzində aksiya keçirmələrinə icazə verilmədi. Bu qadağa qərarını müdafiə edən prezident administrasiyasının ictimai-siyasi şöbəsinin müdiri Əli Həsənov bunu belə izah edirdi "Azərbaycanda stabilliyin olması ölkənin beynəlxalq imicindən daha vacibdir. Əgər biz sabitlik və asayişi qoruyub saxlaya bilmiriksə bu imic bizim nəyimizə lazımdır,"[56] Azadlıq bloku qadağaya məhəl qoymadan sentyabr və oktyabr ayları ərzində Bakının mərkəzində aksiyalar keçirən zaman polis zorkaılığı ilə üzləşdi. Prezident Əliyevin BBC-yə bildirdiyinə görə etirazçıların məqsədi " döyülmək və sonra beynəlxalq TV və qəzetlərdə görünərək Azərbaycan hökumətinin yanlış imicini yaratmaq üçün özlərini qurban kimi göstərməkdir"[57]

Ən nəhayət, hökumət elitanın daxilindəki opponentlərinə güclü bir siqnal göndərdi. Oktyabrın 17-də keçmiş mailiyyə naziri Fikrət Yusifov guya Azərbaycan dissidentlərinə pul ötürülməsində

---

51 "Azərbaycanda İnqilab Avqustun 21-də başlaya bilər t", 18 Avqust 2005, www.axisglobe.org.

52 Azadlıq Radiosu, "15: Həbs edilmiş fəalın atası Azərbaycan Hökumətinin təqiblərini təsdiq", RFE/RL Newsline, 9 Avqust 2005, http://www.hri.org/news/balkans/rferl/2005/05-08-09.rferl.html.

53 Şahin Abbasov və Xədicə İsmayılova, "Azərbaycan gənclərinə oxunulmuş hökm narahatlıq doğurur", 18 İyul 2006, http://www.isn.ethz.ch/isn/Current-Affairs/Security-Watch/Detail/?lng=en&ots627=fce62fe0-528d-4884-9cdf-283c282cf0b2&id=52186.

54 Freedom House, "Azərbaycan: Keçid dövründə olan xalqlar 2006" ("Azerbaijan: Nations in Transit 2006"), http://www.freedomhouse.hu/pdfdocs/azerbaijan2006.pdf.

55 Anar Vəliyev, ""Azərbaycan Parlament Seçkiləri, Uğursuz İnqilab", *Problems of Post-Communism*, vol. 53, no. 3, May/İyun 2006, səh. 23.

56 Şahin Abbasov və Xədicə İsmayılova, "Bakıda yenidən müxalifət-polis qarşıdurması", *EurasiaNet*, 9 Oktyabr 2005, http://www.eurasianet.org/departments/civilsociety/articles/eav101005.shtml.

57 BBC İvan Mahoneyu tərəfindən çəkilmiş sənədli film, *Inqilabı necə etməli* (*How to Plan a Revolution)* (2006),. http://video.google.com/videoplay?docid=-6283659946022683358#. Film haqqında daha geniş məlumat əldə etmək üçün http://news.bbc.co.uk/2/hi/programmes/this_world/4908406.stm.

onun rolunun olması ittihamı ilə həbs edildi. Bunun ardınca, çox tezliklə iki yüksəkrütbəli kabinet üzvü, iqtisadi inkişaf naziri Fərhad Əliyev və səhiyyə naziri Əli İnsanov "hakimiyyətdən sui-istifadə", "dövlət vəsaitini mənimsəmə" və "hakimiyyət çevrilişinə cəhd"də günahlandırılaraq həbs edildilər.[58] 100-ə yaxın insan iddia edilən ssenaridə iştirak ittihamı ilə həbs edildi.

Bu, 2005-ci ilin 6 noyabr seçkiləri fonunda baş verənlər idi. Lakin səsvermənin özü daha pis keçdi. ATƏT müşahidəçilərinin bəyanatlarına əsasən "seçki məntəqələrində səslərin sayılması zamanı geniş miqyasda ciddi pozuntular qeydə alınmışdır"[59] ATƏT/DTİHB hesabatında "seçicinin seçiminə təsir göstərmək cəhdləri, səlahiyyəti olmayan şəxslər tərəfindən müdaxilə və qutulara topa bülleten atılması" kimi hallar daxil olmaqla sistemli problemlər və pozuntuların olduğu qeyd edilmişdir.[60] ATƏT ekspertlərinin yekun qənaəti, seçkilərin "bir sıra ATƏT öhdəliklərinə və demokratik seçkilərin keçirilməsi üçün tələb olunan digər beynəlxalq standartlara" cavab verməməsi olmuşdur.[61]

Yekun olaraq, 3 müxalifət partiyası parlamentdəki 125 yerdən 6-nı qazandı. Noyabırn 19-da, 30.000-nə yaxın müxalifət tərəfdarı seçkinin keçirilməsi və nəticələrinə etiraz etmək üçün küçələrə çıxdı. Etirazçıların çoxu Əliyevi istefaya çağırırdı.[62] Bəzi etirazçılar narıncı baş örtükləri (bandana) bağlayaraq əllərində "Demokratiyamızı neftə qurban verməyə son qoyulsun!" yazılmış plakatlar daşıyırdılar. Lakin tezliklə hərəkatın nəbzi itirildi. Kütlələrin sıxlaşdığını görən Xalq Cəbhəsi Partiyasını lideri Əli Kərimli Noyabrın 26-da oturaq aksiya keçirməyə çağırış etdi. Lakin bu aksiya da polisin sərt müdaxiləsi vasitəsilə dağıdıldı.[63] Etirazçıların arasında olan çox sayda gənc xəsarət aldı və həbs edildi.[64] 2006-cı ilin fevralında Azadlıq bloku dağıldı.

Avropa Şurasının daha öncələr də qeyd etdiyi kimi 2005-ci il parlament seçkiləri "ölkənin demokratiya etimadını doğrultması üçün həlledici test" olacaqdı."[65] Parlament Assambleyasının bu saxta seçkilərdən sonra tətbiq etdiyi sanksiyalardan biri kifayət qədər simvolik idi: bu Azərbaycandan olan yeni seçilmiş parlament üzvlərinə oturmaq üçün yer verməkdən imtina edilməsi idi. 2006-cı il, Yanvarın 23-də Azərbaycan nümayəndə heyətinin etimadını şübhə altına alan təklif hazırlandı.[66] İki gün sonra qəbul edilən qətnamədə Parlament Assambleyası "noyabr

---

58 Fərhad Əliyev 2007-ci ildə vergi mənimsəməsi, korrupsiya və digər iqtisadi cinayətlər üzrə 10 illik həbs cəzasına məhkum edilmişdir. Əli İnsanov vəzifədən sui istifadə və digər iqtisadi cinayətlərdə təqsirkar bilinmişdir. Vəkillər prosedur pozuntularından şikayət etmişlər. 2007-ci ildə o da 10 il həms cəzasına məhkum edilmişdir.

59 ATƏT/DTİHB, "Azərbaycan Respublikası: Parlament Seçkiləri, 6 Noyabr 2005"("Republic of Azerbaijan: Parliamentary Elections, 6 November 2005"), Seçki Müşahidə Missiyasının Yekun Hesabatı, səh. 2, http://www.osce.org/odihr/elections/azerbaijan/17946.

60 *Ibid*.

61 ATƏT Seçki Müşahidə Missiyasının 2 Fevral 2006-cı ildə çap edilmiş nəticələri: http://www.osce.org/documents/odihr/2006/02/17923_en.pdf. Daha çox məlumat üçün Seçki Monitorinq Mərkəzinin təhlilində: http://www.ndi.org/files/1981_az_emcbrief_020106.pdf.

62 BBC, "Azərbaycanda minlərlə insan yeni etiraz aksiyaları keçirir" ("Thousands in fresh Azeri protest"), 19 Noyabr 2005, http://news.bbc.co.uk/2/hi/europe/4452174.stm.

63 Fariz İsmayılzadə, "Musavat Yeni Azərbaycan Parlamentinə qoşulmağa qərar Verdi" ("Musavat Decides to Join New Azerbaijan Parliament"), *Eurasia Daily Monitor*, vol. 3, no. 29, 10 Fevral 2006, http://www.jamestown.org/single/?no_cache=1&tx_ttnews[tt_news]=31372.

64 Anar Vəliyev, ""Azərbaycanda Parlament Seçkiləri, Uğursuz İnqilab", *Problems of Post-Communism*, vol. 53, no. 3, May/İyun 2006, səh. 23.,

65 AŞPA-nın 1456 nömrəli qətnaməsi (2005), "Demokratik İnstitutların Azərbaycanda fəaliyyəti", 22 İyun 2005. http://assembly.coe.int/main.asp?Link=/documents/adoptedtext/ta05/eres1456.htm.

66 Bax: AŞPA-nın 1480 nömrəli qətnaməsi (2006), "Azərbaycan nümayəndə heyətinin etibarnaməsinin əsaslı səbəblər üzündən ratifikasiya edilməsində mövcud maneələr" ("The challenge of still unratified credentials

seçkilərinin Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəlikləri yerinə yetirməkdə növbəti uğursuzluq olduğunu aydın şəkildə göstərdiyi və buna qarşı sanksiyalar tətbiq olunmasının vacib olduğunu" təsdiq etdi. Lakin bununla belə mətn təəccüb doğuran bir qərarla bitirdi:

> "Assambleya yekun olaraq Azərbaycanda 2005-ci ilin noyabrda keçirilən parlament seçkilərinin Sərbəst toplaşma haqqında nizamnamənin 8.2.b bəndi ilə təzad təşkil etdiyi qərarına gəlmişdir: öhdəlik və vəzifələrin yerinə yetirilməsində ardıcıl uğursuzluq… Lakin Assambleya Azərbaycan nümayəndə heyətinin etimadnaməsini təsdiq etməyi qərara almışdır."[67]

Hər hansı sanksiyanın tətbiq edilməməsi ilə Avropa Şurası bu cür utanmaz seçki manipulyasiyasını təsdiq etməməsini bildirməsi üçün ixtiyarında olan yeganə əhəmiyyətli vasitədən istifadə etməmiş oldu. Bu institut özünün əsas mandatına - üzv dövlətlərdə demokratik standartların tətbiq edilməsinə etinasız yanaşmış oldu.[68]

2005-ci ilin dərsləri hər şeyə aydınlıq gətirdi. Seçki inqilabı olmayacaqdı. Demokratikləşmə üçün kənardan gələn hər hansı bir dəstək olmayacaqdı. ABŞ, Avropa Birliyi və Türkiyə xüsusi şərh vermədən aşkar seçki manipulyasiyasını qəbul etdi. Bununla yanaşı, hakimiyyətin ötürülməsi və yaxud həqiqi demokratiyanın əldə edilməsi üçün real addımların atılmayacağı aydın idi. Siyasi gənclər hərəkatları dağılmağa başlamışdı. Rejim siyasi fəaliyyətlə məşğul olmağı təkcə qorxulu deyil, həm də faydasız etməkdə uğur qazanmışdı.

## C. *"Dəyişikliyin özü olmaq"*

> *"Təsdiqləyirəm ki, polyaklar kənardan hər hansı bir kömək gözləmir... Ətrafdan gələn hər hansı həmrəylik jestini sevinə-sevinə qəbul etməyə hazır olsalar da, onlar yalnız və yalnız özlərinə arxalanmalı olduqlarından və bunun gələcəkdə belə olacağından çox gözəl xəbərdardırlar. (Bunu başqalarına bildirmək istəkləri də var.)"*
>
> Adam Miçnik, Qdansk həbsxanasından yazılmış məktub, iyul, 1985[69]

2005-ci il noyabr seçkiləri hökumətin tənqid edilməsi prosesində bir süstlük yaratmış oldu. Müxalifətin ənənəvi üsullarının qeyri-effektiv olduğu sübut olundu. Kütləvi informasiya vasitələri hükumətin sərt nəzarətində idi. Azərbaycandan kənarda yaşayan az sayda insan ölkədə demokratiyanın vəziyyətindən narahat idi. Bu təslimçilik və süstlük ruhu dəf olundu. 2009-cu ilin iyulunda AST (ESİ)-nın İsa Qəmbərdən götürdüyü müsahibə zamanı, Musavat partiyasının lideri: " Demokratik mübarizə vasitəsilə nəyinsə dəyişə biləcəyinə inam qalmamışdı. İnsanlar

---

of the parliamentary delegation of Azerbaijan on substantial grounds"), 25 Yanvar 2006. http://assembly.coe.int/Main.asp?link=/Documents/AdoptedText/ta06/ERES1480.htm.

67 AŞPA, "Azərbaycan nümayəndə heyətinin etimadnaməsində mövcud maneələr üzrə qəbul edilmiş 1480 (2006) nömrəli qətnamənin tətbiqi" ("Implementation of Resolution 1480 (2006) on the challenge of credentials of the parliamentary delegation of Azerbaijan"), 26 İyun 2006, http://assembly.coe.int/main.asp?Link=/documents/adoptedtext/ta06/eres1505.htm.

68 AŞPA 1456 nömrəli Qətnamə (2005), "Azərbaycanda demokratik institutların fəaliyyəti" ("Functioning of democratic institutions in Azerbaijan"), 22 İyun 2005, http://assembly.coe.int/main.asp?Link=/documents/adoptedtext/ta05/eres1456.htm.

69 Mətni tam olaraq Full New York Review of Books-un onlayn versiyasından oxumaq olar, http://www.nybooks.com/articles/archives/1985/jul/18/letter-from-the-gdansk-prison/?page=4.

həbsləri də, seçkiləri də, heç nəyin dəyişmədiyini də görürlər. Onlar artıq heç nədən ilham almırlar."[70]

2005-ci ilin noyabrında əksəriyyəti xaricdə təhsil almış 11 nəfərdən ibarət gənc Bakı kafelərinin birində seçkidən sonrakı tutqun bir dövrdə görüşdülər. Sonradan onlardan birinin yazdığı kimi, burda iştirak edənlər bir-birini yaxşı tanımasalar da, onları birləşdirən bir cəhət vardı - hamısı ölkənin seçdiyi inkişaf xəttindən narazı idilər və hamısı nəyinsə dəyişməli olduğunu və onların nəslinin bunda böyük rol oynamasının vacibliyi ilə razılaşırdılar.[71] Görüş zamanı yeni bir gənclər hərəkatının yaradılması ideyası doğdu. Görüşdə iştirak edən Adnan Hacızadənin ESİ-a bildirdiyi kimi, lap başlanğıcdan siyasətdən uzaq olmaq qərarı verilmişdi.[72] Mandat, parlamentdə yer və ya güc uğrunda mübarizə, Yox!, Yeni Fikir və Məqamın misalında göründüyü kimi və qrup üzvlərinin hamısının razılaşdığı kimi qorxulu və qeyri-effektiv idi. İndi məqsəd gənc insanları maarifləndirən və cəmiyyətin müxtəlif sahələrində fəal rol oynamağa sövq edən ictimai bir hərəkatın yaradılması idi.[73] Qrup mentalitetdə dəyişikliyi, korrupsiya və yerlibazlıqdan imtina edilməsini, gender münasibətlərinin yenidən nəzərdən keçirilməsini, fərqli gənclik mədəniyyətinin aşılanmasını və keçmiş nəslin acı təcrübəsindən nəticə çıxarmağı təbliğ edirdi. Musavat Partiyasını başqanının oğlu İlkin Qəmbərin təsvir etdiyi kimi, gənc fəallar "Azərbaycan gənclərini bir araya gətirəcək və liderlik və komanda quruculuğunu təbliğ edəcək bir təşkilat qurmaq istəyirdilər."[74]

Bir neçə aylıq müzakirədən, planlaşdırma və hazırlıqdan sonra 2006-cı il fevralın 11-də OL yarandı. Təşkilatın mottosu "Dəyişiklik görmək istəyirsən? Dəyişikliyin önündə Ol" idi.[75] Rəsmi şəkildə qeydiyyatdan keçməmiş və buna görə də hüquqi olaraq maliyyə ala bilməyən OL qeydiyyatdan keçmiş QHT-lərlə layihələrdə əməkdaşlıq etməyə başladı. Yeni üzvlərin qəbul edilməsində həssaslıq göstərən OL yeni gələnlər üçün cari üzvlərindən tövsiyə istəyirdi. Hərəkatın fəaliyyətində iştirak edən yüzlərlə gəncdən əlavə, rəsmi üzvlərin sayı tezliklə 200-ə çatdı (2006-cı ildəki 20 nəfərdən). Bütün sənədlər onlayn rejimdə mövcud idi; onları hökumətin hər şeyi nəzarətdə saxlayan gözlərindən gizlətmək üçün cəhd belə göstərilmədi.

İsmarıcını çatdırmaq üçün OL həm şifahi xəbər ötürmədən, həm də social mediadan istifadə edirdi. 2005-ci ildə YouTube fəaliyyətə başladı. 2006-cı ilin sentyabrında Facebook istifadəçilərin xidmətinə verildi. Eyni ildə Twitter adlı mikro-bloq açıldı. OL-çu fəallar interneti doğma evlərinə çevirdilər, başqa fəaliyyəti əks etdirməklə bərabər OLun manifestinin də yerləşdirildiyi bloq işə başladı.[76] Sənəddə göstərilirdi ki, OL-un siyasətlə heç bir əlaqəsi yoxdur və hər hansı siyasi partiya, koalisiya və ayrı-ayrı siyasi liderləri dəstəkləmir.[77] 3 əsas prinsip təsbit edildi: tolerantlıq, qeyri-zorakılıq və müasirlik.

OL-un qarşıya qoyduğu məqsəd ictimai dəyişikliyin təbliğ olunması idi. Prioritetlərdən biri də təhsil idi. Gənc insanların çoxu korruspiyaya uğramış Azərbaycan təhsil sisteminin keyfiyyətindən narazı idi. (Yaxşı qiymətlər və yaxud imtahanlar üçün rüşvətin verilməsi adi bir hal idi.) OL üzvü Ruslan Əsaədovun dediyinə görə, "Azərbaycandakı universitetlərin əksəriyyəti korrupsiya və güclü hökumət nəzarəti ucbatından funksionallığını itirmişdir... Gənc insanların öz

---

70 İsa Qəmbərlə müsahibə, July 2009.

71 OL! Azərbaycan Gənclər Hərəkatının bloqu, "'OL' un yaranma 'mif'i" (Myth on the creation of OL), http://ol-az.blogspot.com/2009/02/ol-yaranmas-mifi.html.

72 Adnan Hacızadə ilə e-mail vasitəsilə ESI müsahibəsi, Yanvar 2011

73 OL! Azərbaycan Gənclər Hərəkatının bloqu, "'OL' un yaranma 'mif'i", *ibid.*

74 İlkin Qəmbərlə ESİ müsahibəsi, İstanbul, Noyabr, 2009

75 Daha çox məlumat üçün: www.antv.ws və www.youtube.com/user/olmedia.

76 Bloqun ünvanı http://ol-en.blogspot.com/.

77 OL! blog, http://ol-az.blogspot.com/2009/01/frequently-asked-questions.html.

fikirlərini paylaşa biləcəkləri liberal bir mühit yoxdur."[78] Buna görə də OL "alternativ təhsili" qarşısına məqsəd qoymuşdu. 2007-ci ildə OL Amerika Məzunları Birliyinin Bakının mərkəzində yerləşən ofisində həftəlik leksiyaların keçirilməsinə başladı. Mövzular təhsilin keyfiyyətinin yaxşılaşdırılmasından tutmuş Ombudsmanın roluna və Avropa İnsan Hüquqları Məhkəməsinə qədər fərqli idi. Getdikcə populyarlaşan leksiyalarda 100-ə yaxın dinləyici iştirak edirdi. 2008-ci ildə OL ifadə azadlığından tutmuş 2008-ci ilin avqustunda baş verən Rusiya-Gürcütsan müharibəsinə qədər müxtəlif mövzuları əhatə edən seminarlar təşkil etdi. 2009-cu ilin sentyabrında OL Azad Fikir Universiteti (AFU) layihəsinə başladı.[79] (Qeydiyyatdan keçmiş layihə kimi AFU mailiyyə dəstəyi ala bilərdi.[80]) 2009-cu ilin sentyabrı ilə 2010-cu ilin iyunu arasında layihə çərçivəsində ümumilikdə 1,000 nəfərin iştirak etdiyi 100-ə yaxın interaktiv seminar, leksiya, müzakirə və digər tədbirlər təşkil edilmişdir.[81]

Adnan Hacızadə OLun kreativ beyninə çevrilmişdi. (Dostları onu "bizim lokomativ" adlandırırdılar.) OLun mətbuat bölümünə məsul şəxs kimi o, satirik və tənqidi mövzularda olan maraqlı videoların yaranmasına rəhbərlik etməyə başladı. Bunların arasında "Siz nəyə inanırsınız?" (Azərbaycan və rus dillərində) tipli fəlsəi mövzulara toxunan videolar da vardı.[82] Digər videolar isə müasir Azərbaycan mədəniyyətini tənqid edir. ("Çünki mən azerbaycanlıyam"), bir neçə dəqiqədən ibarət olan bu videolar Azərbaycanda yaşayan hər kəsə aydın olan gündəlik situasiyaları əks etdirir. Videolardan biri evinin hökumət tərəfindən sökülməsini fatal bir hadisə kimi qəbul edən azərbaycanlını təsvir edir. Digərində isə çox bahalı bir mobil telefonu olan lakin o telefona danışmaq üçün pul yükləyə bilməyən bir insanı görmək olar.[83] Daha sonra OL demokratiya haqqında ilhamverici bir video istehsal etdi. OL-un ən çox baxılan videosu (YouTube-da 14 mart 2011 tarixinə qədər 128,333 dəfə baxılmış) 2009-cu ildə istehsal edildi. "Esel Heinz" ( "Uzunqulaq Haynz"ın alman dilinə tərcüməsi) videosu OL-un və Adnanın işlərinin tanınmasında bir neçə istiqamətdə dönüş yaratdı: Video onlayn yerləşdirildikdən bir neçə həftə sonra Adnan həbs edildi.

## D. İtirilmiş Respublikanın xatirələri

> *"Demokratiya Avropanın övladlarıdır və indi o, bir dalğa kimi bütün dünyaya yayılmaqdadır ... Tamamilə təbiidir ki, bu dalğanın təsir etdiyi ilk ölkələr Avropaya yaxın olan Baltik ölkələri oldu. Ən sonuncu isə Mərkəzi Asiya ölkələri olacaq. Lakin Azərbaycan, müəyyən qədər coğrafiyasına və müəyyən qədər də tariximizə görə xüsusi haldır. Biz avropalı qüvvənin koloniyasıyıq - buna görə də qonşu ölkələr bundan məhrum olduğu halda biz Avropa fikirləri ilə təmasda olmuşuq. Həmçinin bizim iki il fəaliyyət göstərmiş müstəqil dövlətimiz olub - 1918-ci ildə qurulmuş müsəlman dünyasının ilk dünyəvi respublikası"*[84]

Azərbaycanın ilk seçilmiş prezidenti Əbülfəz Elçibəyin jurnalist Tomaz Qoltzla söhbətindən, 1991

---

78 Ruslan Əsədovla müsahibə, Bakı, 18 Noyabr, 2010.

79 AFU-nun veb səhifəsi www.azadfikir.org.

80 Milli Demokratiya Fondu (NED) və Qara Dəniz Regional Əməkdaşlıq Təşkilatı

81 ABŞ-ın German Marshall Fondu, "Uğur hekayələri: Azad Fikir Universiteti", http://www.gmfus.org/blacksea/success_stories.

82 FuserLimon, "What do you believe in? Azərbaycan – Bakı – Siz Nəyə İnanırsınız?", YouTube, 29 Noyabr2006, http://www.youtube.com/watch?v=99YcHcw899YcHcw8aiAaiA. Müxtəlif gənclərə sual verilir və müxtəlif cavablar alınmışdır ("Allah"; özlərinə; demokratiyaya, ədalət, azadlıq və sevgi). 2006-cı ildə hazırlanan bu videoya YouTube-da 34,000 dəfədən çox baxılmışdır.

83 Bax: "Çünki mən Azərbaycanlıyam" videolara ESİ veb səhifəsindən də baxmaq olar.

84 Tomas Qoltz, Azərbaycan Gündəliyi : Azmış Reportyorun neftlə zəngin, müharibə dağıntıları yaşayan, post Sovet respublikasındakı macəraları (*Azerbaijan Diary: A Rogue Reporter's Adventures in an Oil-Rich, War-Torn, Post-Soviet Republic)*, M.E. Şarp, 1998, səh. 59-60.

2008-ci il mayın 28-də Bakı, İstanbul, Los Anceles, London və Nyu Yorkda üzərində əlvan rənglərlə A, D, R hərfləri həkk olunmuş köynəklər geyinən Azərbaycanlı gənclər toplaşmışdı. Onlar Eyfel Qülləsinin qarşısında, Xəzər dənizi sahilində və Bakının mərkəzindəki heykəllərin qarşısında şəkillər çəkdirdilər. Kimisi fəxr hissi ilə gülümsəyir, kimisi ciddi baxır. Qolları üzərində dayanan da var idi. Gənclər şəkil çəkdirib videolar hazırladılar. Hər yerdə verilən ismarıc 3 eyni hərfdən ibarət idi: ADR.

ADR Azərbaycan Demokratik Respublikasının abreviaturasıdır. Bu gənc azərbaycanlılar üçün ADR - müharibə və çaxnaşmanın içində 1918-ci ildə yaranmış, iki ildən də az fəaliyyət göstərərək 1920-ci ildə süquta uğramış ilk müstəqil Azərbaycan dövləti – fərqli, demokratik gələcəyin simvoluna çevrildi. 15-dən çox şəhərdə təşkil olunmuş 28 may tədbiri ADR-in 90 illiyini qeyd edirdi. Tədbirin şüarı: "ADR bizi birləşdirir" idi.[85] Sovet dönəmində bu qısamüddətli "burjua respublikası"nı yad etmək qadağan idi. Bu gün Bakı rəsmiləri ADR-i hazırki Azərbaycan dövlətinin uzaq sələfi kimi yad edirlər. Lakin 90 illiyin şərəfinə təşkil edilmiş tədbirlər zamanı polis Bakının bir sıra ərazilərinə müdaxilə edərək bir neçə saat ərzində təqribi 15 nəfəri həsb etdi.[86]

1918-ci il 28 Mayda, Azərbaycan Respublikasının müstəqilliyinin elan olunduğu gün, Azərbaycan Milli Şurasının sədri Rəsulzadə idi. Rəsulzadə həmçinin Bakıda ilk universitetin yaradıcısı kimi xatırlanır O, 1920-ci il ADR-in dağılmasına kimi parlamentin fəal üzvlərindən biri olmuşdur.

2008-ci ilin iyununda Məzunlar Şəbəkəsi və OL Hərəkatı Tiflisdə "ADR: Keçmişdən Gələcəyə doğru 1918-2018" adlı forum təşkil etdi. Forumdan sonra Facebookda yerləşdirilmiş postda deyilir:

> "ADR ideallarını həyata keçirmək və bu ideyaları və dəyərləri bu gün də təbliğ etmək bizim mənəvi borcumuz və tarixi missiyamızdır... Biz düşünürük ki, Azərbaycan vətəndaşları siyasi seçim etməkdə, öz fikirlərini ifadə etməkdə azad olmalı və heç kim fərqli düşüncəsinə və əməllərinə görə cəza almaq, həbs edilməklə qorxudulmamalıdır.."[87]

Emin Milli forum iştirakçılarını "ADR ideyalarını və dəyərlərini yenidən Azərbaycana qaytarmaq üçün" "ADR Fəaliyyət Planı" yazmağa dəvət etdi.[88] OL və AN üzvləri də Azərbaycan hökumətini neft gəlirlərindən xaricdə oxumaq üçün təqaüd ayrılmasına inandırmaq üçün imza toplamağa başladılar. Fəallar, çətin iqtisadi durumuna baxmayaraq ADR hökumətinin 1919-cu ildə 99 tələbəni xaricə oxumağa göndərdiyini də qeyd etdilər.

İlk baxışda Azərbaycan Demokratik Respublikası 21-ci əsrdə böyüyən gənc azərbaycanlılar üçün qeyri-adi bir ilham mənbəyidir. ADR Qafqaz tarixinin ən çaxnaşmalı dövründə mövcud olmuşdur: Osmanlı imperiyası dağılırdı; Rusiya çarın dəstəkçiləri və bolşevik inqilabçıları arasında gedən müharibənin ortasında idi; İngilis qoşunları Azərbaycanın neft sənayesinə

---

85 Əli Novruzov, "Azərbaycan ilk respublikanın yubileyini qeyd edir" ("Azerbaijan marks anniversary of its first republic",) Frontline Club, 29 May 2009, http://frontlineclub.com/blogs/alisnovruzov/2009/05/azerbaijan-marks-anniversary-of-its-first-republic.html.

86 Bəzi aksiyalardan nümunələrə baxmaq və həmçinin bu tədbrinin məqsədləri haqqında daha geniş məlumat üçün http://ol-az.blogspot.com/2009/05/adr-bizi-birlsdirir-aksiyas.html.

87 Facebook, "ADR: Keçmişdən Gələcəyə – 1918-2018" (note), 29 Oktyabr 2008, http://www.facebook.com/note.php?note_id=94466645098.

88 Məzunlar şəbəkəsinin Facebook profili, http://www.facebook.com/wall.php?id=6006082842&page=2&hash=f4a7842d802d07596fa05936646cc1ca

qoyduqları sərmayəni müharibə və inqilabdan qorumağa çalışırdı.[89] Bütün bunlara baxmayaraq ADR müstəqilliyini elan etdiyi 28 may 1918-ci ildən Qızıl Ordu tərəfindən işğal olunduğu 18 aprel 1920-ci ilə qədər 23 ay mövcud oldu. Hətta bu qısa dönəmin başlanğıcında Bakı 3 müxtəlif ordu tərəfindən mühasirəyə alınmışdı: bolşevik, Osmanlı və 1919-cu ilin avqustunda, respublikanın süqutundan 8 ay öncə, artıq buranı tərk edən ingilis ordusu[90]

Qısa ömrü olan ADR Azərbaycanın təkcə ilk müstəqil dövləti deyil, həm də demokratiya tərəfdarı olan fəallar üçün fəxr mənbəyi olan nisbətən müasir bir dövlət idi. Gənc blogger Əli Novruzovun 2008-ci ilin iyununda yazdığı kimi:

> "… ADR həqiqi demokratiyaya əsaslanırdı: bir çox Avropa millətlərindən daha çox öncə qadınlar və gənclərə seçki hüququ verilmişdi (1919); demək olar ki, bütün etnik azlıqlara yer ayrılmış həqiqi demokratik parlament yaradılmışdı. Hökumət hətta işçi birliklərinin də xüsusi nümayəndəsi üçün yer ayırdı; hətta Təsisat Məclisinin çağırılması üçün hazırlıqlara başlandı (Rusiyanın Bolşevik qüvvələri tərəfindən müdaxilə nəticəsində qurulmayan) ... Azlıqlar, sosialist, kapitalist, mühafizəkarlar, liberallar, dünyəvi millətçilər və dini sağçıların da daxil olduğu Azərbaycan cəmiyyətinin bütün siyasi və ictimai zümrələri ADR parlamenti və nazirlər şurasında geniş sayda təmsil olunmuşdular... Azərbaycan Demokratik Respublikası Azərbaycanda Avropa stilli ilk müasir təhsil ocağı-Bakı Dövlət Universitetini (1919) təsis etdi."[91]

Əli Novruzov "İtirilmiş respublika" adlandırdığı ADR-i və onun irsini həm də qeyd olunması Əliyevlər ətrafında yaradılmış kultdan narazı olan gənc fəallar üçün dissidentliyin mənasını anlatan güclü simvol olaraq görürdü. :

> "ADR liderləri demokratiya quruculuğunun və Müsəlman Şərqində təkcə Azərbaycan deyil, digərlərinə də nümunə ola biləcək müasir dövlətçiliyin ən parlaq modelini qurmuşdular."[92]

Emin Millinin dostu, Rəşad Şirinin ESİ-a söylədiyi kimi, ADR "Qərb stilli" demokratiyanın Azərbaycan üçün mümkünlüyünü sübut etdi:

> "[ADR] hazırki demokratiyayönlü elitanın Azərbaycanda demokratiyanın mümkün olmadığını deyənlərə qarşı arqument olaraq istifadə etdiyi bir mərhələdir... yaxşı keçmişə əsaslanaraq daha yaxşı gələcək qurmaq üçün cəhddir."[93]

## *E. Uzunqulaqların hüquqları*

> *"Sosial dəyişikliklər, hər şeydən əvvəl, ictimai sifariş olan baxışların və fərqli mənəviyyatların toqquşmasından sonra yaranır."*
>
> Adam Miçnik, Qdansk həbsxanasından yazılmış məktub, iyul, 1985

---

89 Tomas de Vaal, Qafqaz: Giriş (*The Caucasus: An Introduction,)* Oxford University Press, 2010, səh. 64.

90 Çarlz Kinq, Azadlıq Kabusu. Qafqazın Tarixi (*The Ghost of Freedom. A History of the Caucasus),* Oxford University Press, 2008, səh. 166-168.

91 Əli Novruzov, "Azərbaycan Demokratik Respublikası- Müsəlman Demokratiyasının 90-cı ildönümü" ("Azerbaijan Democratic Republic – the 90th anniversary of a Muslim Democracy"), *In Mutatione Fortitudo* bloqu, 6 İyun 2008, http://blog.novruzov.az/2008/06/azerbaijan-democratic-republic-90th.html.

92 Əli Novruzov, "Azərbaycan Demokratik Respublikası- Müsəlman Demokratiyasının 90-cı ildönümü" ("Azerbaijan Democratic Republic – the 90th anniversary of a Muslim Democracy"), *In Mutatione Fortitudo* bloqu, 6 İyun 2008, http://blog.novruzov.az/2008/06/azerbaijan-democratic-republic-90th.html

93 ESI-ın Rəşad Şirinlə müsahibəsi, 11 Mart 2009.

2008-ci ilin noyabrında Londonda, Lordlar Palatasında təşkil edilmiş Avropadakı Azərbaycan Gənclərinin Forumu (FASE) zamanı, gənc fəal və Adnan Hacızadənin dostu Emin Milli "Dəyişiklik Manifesti" adlandırdığı nitqini təqdim etdi:[94]

> "Azərbaycana hələ də dəyişiklik gəlməyib. Lakin siz dəyişikliyin qarşısını aldıqca o, bir o qədər güclü şəkildə gələcək və sizi də zəbt edəcək. Dəyişiklik daxildən və xaricdən, soldan və sağdan, cənnət və cəhənnəmdən Azərbaycana doğru irəliləyir. İndi isə bizim nəslə cəmiyyətimizdəki dəyərlər strukturu çərçivəsində hansı dəyişikliyin lazım olduğunu dəqiqliklə müəyyənləşdirəcək güclü vizyonun və dövlətin yaradılması lazımdır. Elə bir dövlətin ki, cəhənnəmlə nəticələnməyəcək və bizim cənnətə öz yolumuzu açacaq.

Emin Azərbaycanın neftinin ondan yalnız insan potensialının inkişafı üçün istifadı ediləcəyi təqdirdə ölkə üçün xeyir gətirəcəyini bildirirdi:

> "İnsan qızılımız ola-ola qara qızılın insan qızılına çevrilməsi haqqında danışmaq bizə heç bir şey verməyəcək."[95]

Emin ADR-in demokratik irsini geri gaytamağı və Azərbaycanın təhsil sistemində islahatlar etməyin təbliğatını aparırdı. O, həmçinin Azərbaycanlı uşaqlara artıq kiçik yaşlardan azad cəmiyyətin dəyərlərini aşılamağın vacibliyindən çox həvəslə danışırdı.[96] Eminin nitqi YouTube-a yerləşdirildi. Onun hələ də qeyri-müəyyən olan dəyişiklik anlayışı bir sıra gənc Azərbaycanlını narahat etməyə başlamışdı. Brüsseldə olan bir hökumət yönümlü fəalın ESİ dediyinə görə "Eminin Azərbaycanı Lordlar Palatasında tənqid etməsi bəzilərinin xoşuna gəlmədi. Bu demoralizə edən bir addım idi"[97] Emin üçün isə düşüncəsini söyləmək azadlıq idi. Avtoritarizmin Azərbaycanda gücləndiyi aşkar idi, Eminin hökumətə münasibətdə mövqeyi getdikcə daha da tənqidi olurdu.[98]

Tezliklə Emin Bakıdakı xaricdə təhsil almış Facebook nəslinin ən məşhur natiqinə çevrildi. Bakı Dövlət Universitetinin Beynəlxalq Hüquq fakultəsini 1999-cu ildə bitirərək ABŞ-ın Beynəlxalq Respublikaçılar İnstitutunda bir neçə ay işlədikdən sonra o, Almaniyaya gedib 2002-ci ildə Saarbrüken universitetinin hüquq fakultəsini bitirmişdir. Bundan sonra o bir neçə beynəlxalq təşkilatla işləmiş, ATƏT-in 2005-ci ildə seçki müşahidə missiyasına və Avropa Şurasına Azərbaycandakı 40-a yaxın siyasi məhbusun işi üzrə yardım etmişdir.[99] Emin Qərbdə təhsil almış, xaricdə liberal demokratiya ilə birbaşa tanış olmuş gənc azərbaycanlıların ölkənin inkişafında vacib rol oynaya biləcəyinə inanırdı. Bu düşüncəyə əsaslanaraq 2005-ci ildə Emin və dostları Məzunlar Şəbəkəsini (AN) yaratdılar.[100] AN real təşkilat deyildi; onun ofisi, büdcəsi, rəsmi üzvlüyü yox idi, iştirak etmək istəyən hər kəsin üzünə qapılar açıq idi. İlk altı ay ərzində 1,500-dən çox adam elektron ünvan siyahısına qoşulmuşdu. AN şəbəkəsinin ilk tədbirlərindən

---

94 3 uşağın ən kiçiyi olan Emin Milli 1979-cu ildə Bakıda Natella və Paşa Abdullayevlərin ailəsində doğulmuşdur. Onun atası mühəndis idi. Emin ictimai fəal olduğu zaman valideyinləri artıq pensiyaya çıxmışdılar. Onun atası uzun sürən xəstəlikdən sonra 2010-cu ildə dünyasını dəyişmişdir.

95 Emin Milli, "Dəyişiklik Manifesti" ("The Manifesto for change") (full version), http://www.youtube.com/watch?v=ClZT7yP4lM0.

96 *Ibid*.

97 ESI müsahibəsi, Bakı, Dekabr 2009.

98 Emin Milli, "Azərbaycandakı dəyişikliyin manifesti" ("Manifesto for Change in Azerbaijan"), 24 Yanvar 2011 tarixində Facebook-da yerləşdirilmiş qeyd, http://ru-ru.connect.facebook.com/note.php?note_id=135447193184885.

99 Adnan və Emin həbsdə olduqları müddətdə onlar haqqında məlumatın yerləşdirildiyi Azərbaycan bloggerləri tərəfindən yaradılmış veb səhifə, http://adnanemin.wordpress.com/

100 ESI-ın Rəşad Şirinlə, Məzunlar Şəbəkəsinin həmtəsisçisi ilə müsahibəsi, Bakı, 21 Oktyabr 2009.

biri də Amerika Məzunlar Birliyinin ofisində təşkil edilmiş parti idi. Həmtəsisçilərdən biri olan Rəşad Şirin bunu belə təsvir edir:

> "Biz iştirakçılıq hissini aşılamaq istəyirdik. Burada 100 nəfər insan var idi, onlardan çoxu heç bir-birini tanımırdı. Belə bir tədbir Bakıda birinci dəfə idi ki, təşkil olunurdu."[101]

Daha sonra buna bənzər çoxlu tədbirlər təşkil edilməyə başladı. Eminin dediyinə əsasən, AN şəbəkəsinin ən böyük partilərdindən birinə 1,000-ə yaxın insan gəlmişdi.[102] 2005-ci ilin mayında AN özünün ilk mühazirəsini təşkil etdi. Bundan sonra demək olar ki hər bazar günü belə mühazirələr təşkil edilirdi. Sonralar Emin deyirdi:

> "Bizim ilk mühazirəmiz xaricdə oxumaq imkanları barədə idi ki, bunun çox insanı cəlb edəcəyini düşünmüşdük. Sonra isə daha fəlsəfi mövzular müzakirə edilməyə başlandı-dekonstruktivizm, Habermas və s."[103]

Alman fəlsəfəsinə maraq heç də təsadüfi deyidi. Habermasa görə "ictimai sfera" açıq tənqidi müzakirənin olduğu yerdir. Onun emansipasiyaçı baxışına görə, müstəqil debatın ictimai sahəsi despotik dövlət gücünün idarə edilməsinə xidmət etməlidir.[104] AN həmçinin film nümayişləri də təşkil edirdi.[105] Nümayiş edilən ilk filmlərdən biri Şərqi Almaniyada özü də istəmədən əmrləri yerinə yetirən Ştazi agentindən bəhs edən *The Lives of Others* (Başqalarını Həyatı, 2006) *filmi idi*. Uydurma bir ölkədə devrilən tiran rejiminin eyni dərəcədə amansız və əzici olan digər bir rejimlə əvəz olunduğundan bəhs edən siyasi satira janrında *Land of the Blind* (Korlar Ölkəsi 2006)[106] filmi növbəti dəfə nümayiş etdirildi.[107]

Başqaları kimi, Emin üçün də Azərbaycanda president seçilmək üçün qoyulan vaxt məhdudiyyətini aradan qaldıran 2009-cu ilin mart referendumu dönüş nöqtəsi oldu.[108] 15 aprel 2009-cu ildə Emin "Azərbaycanda nəsil və demokratiya" adlı növbəti tənqidi nitqini Nyu Yorkda Kolumbiya Universitetində söylədi. O, Əliyevlər ətrafında yaradılmış şəxsiyyətə pərəstiş bütünü tənqid etdi. Onun dediyi kimi, Azərbaycan keçmiş Sovet İttifaqında bu tipli ilk "siyasi nəsil" tərəfindən idarə olunur:

> "Martın 18-də keçirilmiş bu referendum hakim rejimin gücünün daha da möhkəmləndirilməsinin kulminasiya nöqtəsi idi. Düşünürəm ki, referendum legitim deyildi, o nə ədalətli, nə də hüquqi idi. Azərbaycan hökuməti ömürlük prezidentliyə konstitusional qapıları açmaqla Çad, Uqanda, Zimbabve, Əlcəzair, Belarusiya, Özbəkistan və Venesuelanın yolunu getmək qərarını vermişdir."[109]

---

101 *Ibid*.
102 ESI-ın Emin Milli ilə müsahibəsi, Bakı, Dekabr 2010.
103 *Ibid*.
104 Bax: Yurgen Habermas, Dövlətin struktur baxımından dəyişilməsi (*The Structural Transformation of the Public Sphere),* 1962, 1989-cu ildə İngilis dilinə tərcümə edilmişdir.
105 Nigar Fətəliyeva, "İndi CinemAN Azərbaycandadır" (CinemAN, Now in Azerbaijan), 20 February 2009, http://stop-it-please.livejournal.com/62158.html.
106 Bax: Korlar ölkəsi ( *Land of the Blind),* http://www.imdb.com/title/tt0433405/.
107 CinemAN haqqında daha geniş məlumat üçün: http://cinemanen.wordpress.com/.
108 "Azərbaycan Prezidentlik Müddətini lazımsız edəcək ziddiyyətli təklif irəli sürür", *Azadlıq Radiosu*, 18 Mart 2009, http://www.rferl.org/content/Azerbaijanis_Vote_On_Controversial_Proposal_To_Scrap_Presidential_Term_Limits/1512634.html.
109 "Azərbaycanda nəsil və Demokratiya", 4 May 2009, http://emajidli.wordpress.com/2010/04/05/dynasty/.

Emin ən kəskin sözlərini Azərbaycanda bütün sahələrdə güclü kök salmış korrupsiya mövzusu üçün saxlamışdı:

> “İqtisadiyyatın monopoliyası və dünyadakı korrupsiyanın ən yüksək səviyyəsinin olması çoxşaxəli və dayanıqlı iqtisadi sistemin yaradılmasının qarşısını alır. Rejim korrupsiya sistemindən istifadə edərək (korrupsiyaya icazə verib, cəza verməyərək) rejimi dəstəkləyən klanların sadiqliyini qazanır. O həmçinin korrupsiyanın sistemin əsası və oyun qaydaları olduğu bir mühitdə yaşamaq uğrunda mübarizə aparmaq üçün korrupsiyaya qurşanmağa məcbur edilən əksər vətəndaşların əl-qolunu bağlayır”

Emin üçün Azərbaycanın heç bir zaman siyasi rəqabətə şərait yaratmayacaq avtoritar rejimin güclənməsi ilə üz-üzə qaldığı daha çox aydın olurdu. “ Müxalifət qüvvələrini təhdid etmək və müstəqil ictimai qrupların yaranmasının qarşısını almaq üçün rejim özünün repressiya aparatını daha da gücləndirir.”[110]

Eminin təqdimatının mətni və videosu onlayn olaraq yerləşdirilmişdir. Azərbaycan diplomatları və Bakıdakı beynəlxalq təşkilatlarda işləyən bir sıra insanlar Eminin özünün də bildiyi kimi, onun böyük risk altına girdiyini deyirdilər. Kolumbiya nitqi zamanı söylədiyi kimi,

> “ Yanvar ayında mən BMT-nin binası qarşısında bu referendum əleyhinə etiraz aksiyası təşkil edib özüm də burda iştirak edəndə mənim yaxın ailə üzvlərimdən biri işdən çıxarıldı. Ona dövlətin düşməninin qohumu olduğunu demişdilər. Bu sizin bu rejimə sadiqlik əlaməti göstərməkdən imtina edərkən və ya onların yürütdüyü siyasətlə razılaşmayaraq öz fikrinizi söylədiyiniz zaman tətbiq olunan yumşaq tənbeh metodudur. Ümid edirəm ki, bizim tədbirimizdə iştirak edən insanlar bu cür cəza ilə üzləşməyəcək və onlar alternativ düşüncəni dinlədikləri üçün qohumları işdən çıxarılmayacaq.”[111]

Lakin nə Emin nə də dostu Adnan hədələnməmişdilər. Adnanın xahişi ilə Emin ABŞ-a etdiyi səfərdən döndüyü zaman OLun həyata keçirdiyi növbəti layihəsi-2009-cu il Gül Bayramından bir ay sonra YouTube-da yerləşdirilən satirik video üçün uzunqulaq kostyumunu gətirdi.[112] Bu müxalifət mətbuatında dolaşan şaiyələrə yol açan ironiya: Azərbaycan hökuməti $41,000 dəyərində uzunqulaqları məhz Almaniyadan almışdır.[113] “Uzunqulaq” videosuda uzunqulaq journalist rolunu oynayan bir qrup gəncə mətbuat brifinqi verir:

> “Əgər mən yenidən Azərbaycanda doğulsaydım, mən yəqin ki yenidən uzunqulaq kimi doğulardım. Avropa ölkələrinin əksinə olaraq, burda səndə nə qədər çox uzunqulaqlıq varsa, sənin üçün bir o qədər çox imkanlar var... Nəyə görə mən belə bahayam? Çünki mən A kateqoriyalı uzunqulağam – mən üç dildə danışıram və skripka ifa edirəm ... Mən digər uzunqulaqların hüquqlarını qorumaq üçün Liberal Uzunqulaqlar Assosiasiyasının üzvü kimi fəaliyyət göstərməyi planlaşdırmışdım. Lakin QHT-lər haqqında sonuncu qanun düzəlişi təkliflərini nəzərə alsaq bunun qeyri mümkün olacağı görünür. Əgər onlar uzunqulaqlara bu işlə məşğul olmağa icazə vermirlərsə, o zaman normal insanlar bunu necə edəcəklər?”[114]

---

110 *Ibid*.

111 *Ibid*.

112 BBC, “Uzunqulaq bloggerləri” (“The ‘donkey bloggers’”), 25 Noyabr 2010, http://www.bbc.co.uk/worldservice/programmes/2010/11/101125_outlook_azerbaijan_donkey_bloggers.shtml

113 Mətbuatda gedən məlumata görə: “Azərbaycan hökuməti 41 min dollara bir eşşək alıb”, 7 İyun 2009, http://ria.az/iqtisadiyyat/10503.html; Famil CƏFƏRLİ, FUTBOL VƏ EŞŞƏK BİZNESİ, Musavat qəzeti, http://www.musavat.com/new/yazar/54617-FUTBOL_VƏ_EŞŞƏK_BİZNESİ.

114 Uzunqulaq videosunun YouTube ünvanı http://www.youtube.com/watch?v=Aaecvg7xCIk (Azərbaycan dilində ingilis subtitrləri ilə), bu URL üzrə 24 Yanvar 2011 tarixinə qədər 126,138 dəfə baxılmışdır.

Jurnalistlər üçün skripka ifa etdikdən sonra uzunqulaq konfrans otağını tərk etməyə hazırlaşır. Bunu edərkən o, jurnalistlər tərəfindən alqışlanır və video donur, ekranda isə sual əmələ gəlir:

> "Uzunqulaqların qoruyanlar tapılar. Bəs insan hüquqlarını kim qoruyacaq?"

## 3. REPRESSİYA

### *A. Emin və Adnan necə həbsə düşdülər*

2009-cu il iyulun 8-də Emin, Adnan və onların beş başqa dostu Livan restoranında axşam yeməyi yeyərək Adnanın dediyi kimi "Azərbaycan gəncliyinin gələcəyini" müzakirə edirdilər.[115] Emin və Adnan 2006-c ildə Alman Mədəniyyət Mərkəzində təşkil olunmuş bir tədbir zamanı tanış olub dostlaşmışdılar. Dostlarının dediyinə görə, restoranda onlardan başqa kənar stollardan birində əyləşmiş iki nəfər var idi. Birdən bu iki nəfərdən biri - sonradan onların 20 yaşlarında, idman bədən quruluşuna malik Vüsal Məmmədov və Babək Hüseynov olduqları aydın oldu - Eminə yaxınlaşaraq onların nə haqda danışdığını soruşdu.[116] Sonra isə gözlənilməz şəkildə Eminə kəllə vurdu. Adnan önə keçdi və bu zaman onu da yerə yıxdılar. Hər iki adam Emini və Adnanı vurmağa başladı, Adnanın burnu sındı, Eminin isə ayağı zədələndi. Restoran işçiləri insidentə bir neçə dəqiqə sonra müdaxilə etdilər.

Emin, Adnan və restoranda olan dostlarından biri Orxan Qafarlı həmin dəqiqə yaxınlıqda yerləşən 39-cu Polis Bölməsinə getdilər. Adnan öz qız dostu Pərvanə Persianiyə zəng edərək insident barədə məlumat verdi. Pərvanə digər dostlarına xəbər verərək polis idarəsinə getdi. Eminlə Adnan polis idarəsinə gəldikləri zaman orada onlara bu ərazinin onların idarəsinə aid olmadığını bildirdilər. Polis 3 gənci maşına mindirərək 9-cu Polis bölməsinə gətirdi.

Restoranda nahar edən gənclərdən qalan dördü isə orda qalaraq polis çağırdılar. Polis Vüsal Məmmədov və Babək Hüseynovu sorğu-sual etmək üçün 9-cu polis bölməsinə apardı. Bu dörd gənc isə taksiyə əyləşərək polis maşınının ardınca artıq çoxlu sayda dostların və qohumların yığışdığı polis bölməsinin qarşısına gəldilər. Polis burda yığışanları dağıtmağa çalışsa da, onlar burdan heç yerə getməyəcəklərini bildirdilər. Bundan sonra isə Adnan, Emin və Orxan Səbayıl Rayon Polis İdarəsinə aparıldılar. Dostları və qohumları da onların ardınca oraya getdilər. Bunlar artıq axşam saat 9 radələrində baş verirdi.

Adnanın qız dostu Pərvanə idarənin binasına daxil ola bilərək Adnana zədələndiyinə görə buz verə bilmişdi. Həmin vaxt Adnan Vüsal Məmmədov və Babək Hüseynovun onlardan üzr istədiklərini və Emindən şikayətlərini geri götürməyi xahiş etdiklərini Pərvanəyə dedi. İdarənin binasından çıxdıqdan sonra Pərvanə onları bayırda gözləyən iki dostu ilə məsləhətləşdi: bunlardan biri Azadlıq Radiosunun təcrübəli jurnalisti Xədicə İsmayılova, digəri isə Məzunlar Şəbəkəsinin (AN) həmtəsisiçilərindən olan hüquqşünas ekspert Erkin Qədirli idi. İsmayılova və Qədirli Eminlə Adnana şikayətlərini geri götürməməyi tövsiyyə etdilər. Onlar 2007-ci ilin noyabrında *Azadliq* qəzetinin xuliqanlıq ittihamı ilə həbs edilmiş redaktoru Qənimət Zahidi xatırladılar. Qənimət Zahidə onun qadına sataşdığını iddia edən tanımadığı bir nəfər tərəfindən küçədə hücum edilmişdi. Zədələnməsinə baxmayaraq Qənimət Zahid şikayət etməmişdi. Lakin ona hücum edən şəxs növbəti gün şikayət edərək Qənimət Zahidi xuliqanlıqda təqsirləndirmişdi.

---

[115] ESI-ın Adnan Hacızadə ilə müsahibəsi, 12 Yanvar 2011.

[116] Daxili İşlər Nazirliyinin verdiyi məlumata əsasən, 1984-cü il təvəllüdlü Vüsal Məmmədov Ağdam, 1983-cü il təvəllüdlü Babək Hüseynov isə Füzuli rayonundan olan məcburi köçkünlərdir, according to the information http://www.mediaforum.az/articles.php?article_id=20090709070651220&lang=az&page=00.

Bundan sonra isə Q.Zahid dörd il həbs cəzasına məhkum edilmişdi. O, 2010-cu il martın 17-də verilən prezident əfvi sayəsində azadlığa çıxmışdır.

Adnan və Emin də X.İsmayılova və E.Qədirlinin məsləhətinə əməl etdilər. Lakin şox qısa bir zamanda onların da işi Qənimət Zahidin işi şəklini almağa başladı. Elə həmin axşam Vüsal Məmmədov və Babək Huseynova polis idarəsini tərk etmək icazəsi verildi. Adnan və Emin isə qurbandan şübhəli şəxsə çevrildilər. (Təxmini gecə saat 1-də Adnan öz dostlarına telefonla ismarıc yollayaraq şübhəli şəxs qismində saxlandıqlarını bildirdi.) Vəkil istəyən Adnanın vəkili, idarənin qarşısında onları gözləyən insanların arasında olsa da, o, polis idarəsinə buraxılmadı. Gecə saat 2-də polis Eminlə Adnanın xuliqanlıq ittihamı ilə 48 saat saxlandığını bildirdi. Bu elandan qısa bir müddət sonra hər iki gənc 37-ci Xətai Rayon Polis Bölməsinə aparıldı.

Həmin xoşagəlməz axşamdan iki gün sonra, Emin və Adnan dindirildi. Daha sonra isə, həmin gün Səbayıl Rayon Məhkəməsində qapalı məhkəmə keçirildi. İfadə vermək üçün heç bir şahid çağırılmadı. Emin və Adnan xuliqanlıqda ittiham olunaraq barələrində, Azərbaycanda qanunvericiliyin imkan verdiyi ən maksimum cəza- iki aylıq həbs qəti imkan tədbiri seçildi.[117] Sonralar insan haqları müdafiəçiləri ilk 48 saat ərzində Emin və Adnana tibbi yardımın göstərilməməsi və istəklərinə uyğun olaraq vəkillə təmin olmamaları kimi polis zorakılığı barədə məlumatlar vermişdilər.[118] Saxlanma protokollarında Emin və Adnanın cinayətkar keçmişə malik olmaları kimi yalan məlumatlar əksini tapmışdır.[119] (Protokolların surəti Emin və Adnana təqdim edilməmişdir.) İyulun 9-da, Azərbaycanın Ombudsmanı, Elmira Süleymanova Daxili İşlər Naziri Ramil Usubova və Baş Prokuror Zahid Qaralova məktub göndərərək hər iki tərəfin barışıqla razılığa gəlməsini təklif etmişdir .[120]

2009-cu il iyulun 11-də, iş məhkəməyə çatmadan Daxili İşlər Nazirliyi və Baş Prokurorluq birgə bəyanat yayaraq artıq Adnan və Emini baş vermiş insidentdə təqsirkar adlandırdılar. Bəyanatda çoxlu sayda yalan məlumat əksini tapmışdır:

> “ 2009-cu il iyulun 8-də, təxminən saat 18.00 radələrində içkili vəziyyətdə olan Adnan Hacızadə, habelə Emin Abdullayev və daha beş nəfər «Lebanese» restoran-barında ucadan etik normadan kənar nalayiq ifadələr işlətdiklərinə görə onlara irad tutan vətəndaşlar Vüsal Məmmədov və Babək Hüseynova qarşı heç bir səbəb olmadan fiziki zor tətbiq etməklə qərəzli xuliqanlıq hərəkətlərinə yol veriblər. Hadisə yerinə polis əməkdaşları gələnədək Adnan Hacızadə ilə bir yerdə olmuş şəxslərdən dördü qaçıb, *[ESI: Bu dörd nəfər polisi çağıran gənclər idi*] lakin üç nəfəri saxlanılaraq Səbail Rayon Polis İdarəsinin 9-cu polis bölməsinə gətirilmişdi [*ESI: Adnan, Emin və Orxan polis bölməsinə özləri getmişdilər*]. Digər dörd nəfər - Ülvi Həsənli, Nurəddin Babayev, Pərviz və Bəhram isə hazırda axtarışdadır.”

Sənəd həm də defensiv bir mövqedə hazırlanmışdı:

---

[117] Adnan Hacızadə və Emin Millinin işi ilə tanış olmaq üçün, 19 Sentyabr, 2009, http://supportadnanandemin.rsfblog.org/archive/2009/09/22/summary-of-the-adnan-hajizadeh-emin-milli-case.html.

[118] Demokratiya uğrunda Dünya Hərəkatının veb səhifəsi, “Vətəndaş Cəmiyyəti Forumunun iştirakçılarının gənc fəallara qarşı olan təzyiqlərlə bağlı Prezident İlham Əliyev və Daxili İşlər Naziri Ramil Usubova 9 İyul 2009-cu ildə müraciəti”, http://www.wmd.org/documents/Appeal0709.pdf.

[119] Əli Novruzovun bloqu, *In Nutatione Fortitudo*, 5 Sentyabr 2009, http://blog.novruzov.az/2009/09/bloggers-trial-report-from-outside-of.html.

[120] “Ombudsman həbs edilmiş gənclər barəsində məktub yazıb”, *Media Forum Azərbaycan*, 9 İyul 2009, http://mediaforum.az/articles.php?lang=az&page=00&article_id=20090709060525977. VBu xəbər həm də müxalifət qəzeti olan Azadlıq tərəfindən yayımlanmışdır http://www.azadliqradiosu.az/articleprintview/1773346.html.

> "Adi bir xuliqanlıq hadisəsi olan bu işə verilən beynəlxalq reaksiyaya etirazımızı bildiririk. Biz bunu istintaq prosesinə müdaxilə kimi qiymətləndirir və beynəlxalq ictimaiyyəti Azərbaycan Respublikasının daxili işlərinə qarışmağa son qoymağa çağırırıq."[121]

Bəyanatın yayılmasından az sonra, "axtarışda olan" 4 nəfər mətbuat konfransı keçirərək incident yerindən qaçmadıqlarını, əksinə uğursuzluqla nəticələnsə də, polisə ifadə verməkdə israrlı olduqlarını bildirdilər.[122]

On gün sonra isə Vüsal Məmmədov və Babək Hüseynov 8 iyul hadisələri haqqında bəyanat yayaraq bildirdilər:

> "Biz Livan restoranına yemək yeməyə getmişdik. Oturmaq üçün yer seçdik və yemək sifariş etdik. Qonşu masada 7-8 nəfər əyləşərək yemək yeyir, içki içirdilər. Bir qədər sonra biz onların [ucadan] söyüş söydüyünü eşitdik. Biz bundan narahat olduq və onları xəbərdar etdik. Lakin onlar bizim onlardan sakit olmağı xahiş etdiyimizə əhəmiyyət vermədilər və davam etdilər. Biz onlardan söyüş söyməməyi xahiş etdik, çünki biz sakit şəkildə istirahət etmək istəyirdik. Onlardan biri dedi ki, "Biz nə istəsək onu da edə bilərik. Bizə tərbiyə verməyin." Daha sonra bu davaya çevrildi. Biz dava etmək istəməsək də, onlar bizə hücum etdilər. Biz özümüzü qorumağa çalışırdıq. Onlardan ikisi bizi xüsusi amansızlıqla döyürdü. Nəticədə biz xəsarət aldıq. Bu günə qədər də xəstəxanada müalicə alırıq. Dostlarımızdan eşitdiyimizə görə qəzetlərdə bizim əleyhimizə kampaniya aparılır."[123]

## *B. Məhkəmə şousu*

Məhkəmə 4 Sentyabr 2009-cu il tarixində başladı. Ümumilikdə 12 məhkəmə dinləməsi keçirildi. Səsyazma üçün istifadə edilən qurğular və kameraların məhkəmə zalına gətirilməsi qadağan edildiyindən məhkəmə protokolları da ictimaiyyət üçün qapalı idi. Gənc fəal və Adnanla Eminin dostu Vəfa Cəfərova məhkəmə dinləmələrinin əksəriyyətində iştirak etmişdir. 2008-ci ilə qədər Vəfa əsası 2005-ci ilin fevralında qoyulmuş demokratik gənclər hərəkatı - Dalğanın sədri olmuşdur. Onun etiraz ruhlu mahnılar yazan həyat yoldaşı isə Emin və Adnan həbs edildikdən sonra onlar haqqında mahnı yazmışdır.[124] Məhkəmə dinləmələri zamanı Vəfa məhkəmə zalında baş verənləri Facebook-da yaymaq üçün mobil telefonundan istifadə edirdi. Sonralar digər insanlar da bunu etməyə başladı. "Telefonla içəri keçməyə icazə verilmirdi - yalnız kağız və qələm gətirmək olardı - lakin biz bəzən iki telefonla gəlib, birini təhvil verərək digərini özümüzlə içəri keçirirdik," deyə Vəfa izah edir.[125]

Dinləmələr zamanı, Vüsal Məmmədov insidentin Eminin restoranda olan qadınlara qarşı nalayiq ifadələr işlətməsinə görə başladığını təkid edirdi. Babək Hüseynov da eyni şeyi söyləyərək, Eminin söyüş söydüyünü, onun isə Emindən mədəni olmasını xahiş etdiyini bildirdi. "Bundan

---

[121] Daxili İşlər Nazirliyinin, Daxili İşlər Nazirliyi və Baş Prokurorluğun birgə bəyanatı, 14 İyul, 2009, http://www.mia.gov.az/?/az/news/view/239/.

[122] "Axtarışda olan: 'Biz heç bir yana qaçmamışıq'", Azadlıq Radiosu, 13 İyul 2009, http://www.azadliq.org/content/article/1775852.html.

[123] "Adnan Hacızadə və Emin Milliyə qarşı açılmış cinayət işində zərərçəkən şəxslər mtəbuata müraciət etdi", APA, 20 İyul 2009, http://en.apa.az/news.php?id=105248.

[124] Onnik Krikorian, "Azərbaycanda Azadlıq və Demokratiya üçün verilən siqnallar" ("Rapping for Freedom and Democracy in Azerbaijan"), 30 Avqust 2009, http://frontlineclub.com/blogs/onnikkrikorian/2009/08/rocking-and-rapping-for-freedom-and-democracy-in-azerbaijan.html. Emin və Adnan haqqında Azər Cırttan tərəfindən yazılmış "Divar" mahnısı, http://www.youtube.com/watch?v=kEfMu_4_I1E.

[125] ESI-ın Vəfa Cəfərova ilə müsahibəsi , Yanvar 2011.

sonra Emin gəlib Vüsalı vurdu, Adnan da ona qoşuldu.", deyə Hüseynov bildirdi. Emin və Adnan isə bildirdilər ki, restoranda başqa müştəri yox idi və Vüsal Məmmədovla Babək Hüseynov uzaq masada əyləşmişdilər, ona görə də onların nə danışdığını ümumiyyətlə eşidə bilməzdilər. Hüseynov və Məmmədov vəkillərin verdiyi suallardan yayınmağa çalışırdılar. Onların yazdığı şikayət ərizəsi haqqında sual verilərkən, Məmmədov bildirdi ki, "polis nə deyibsə, onu da yazmışam". Hüseynov isə nə yazdığını ümumiyyətlə xatırlamadığını bir neçə dəfə söylədi. Restoranın ofisiantı məhkəməyə ifadəsi zamanı bildirdi ki, restoranda Emin, Adnan və onların beş dostu, həmçinin Babəklə Vüsal və restoran işçilərindən başqa heç kim yox idi. Ofisiant xanım həmçinin Adnan və Emin outran masadan heç bir söyüş və ya ucadan danışıq eşitmədiyini bildirdi. İfadə verən iki polis isə xəsarət alanların yalnız Emin və Adnan olduğunu bildirdi. Bu zaman prokuror polislərdən birinə, Zahid Daşdəmirova onun insidentdən sonra Babək Hüseynovun qarnını tutduğunu görməsini xatırlatdı. Daşdəmirov əvvəl verdiyi ifadədən imtina edərək, dedi ki, ola bilər belə olub; çünki hadisəni raport yazarkən daha yaxşı xatırlayırdı..[126]

İdman Akademiyasının məzunları olan Vüsal Məmmədov və Babək Hüseynov idmançı görkəminə, iri vücuda sahibdirlər. Emin və Adnan tərəfindən döyüldüklərini söyləmələri zalda əyləşənlərdə gülüş doğururdu. Eminin dediyi kimi, onun özü və Adnanla Vüsal Məmmədov və Babək Hüseynov arasında açıq-aşkar fiziki quruluş və güc fərqləri var.[127]

Məhkəmə davam etdikcə məsələyə olan beynəlxalq diqqət artmağa başladı. Azadlıq Radiosundan tutmuş *New York Times* və BBC-yə qədər bütün kütləvi informasiya vasitələri Emin və Adnanın həbsi və onlara qarşı sürülən ittihamı işıqlandırırdı. 2009-cu il senytabrın 4-də Article 19, Azad Fikir İfadəsi üçün Qlobal Kampaniya, Human Rights Watch və Beynəlxalq PEN təşkilatları Prezident İlham Əliyevə açıq məktub ünvanlayaraq "Azərbaycanda fikir azadlığının təhlükədə olduğundan, fərqli fikir bildirən şəxslərin və kütləvi informasiya vasitələrinin müxtəlif metodlarla susdurulduğundan narahatlıq" keçirdiklərini bildirmişlər.[128] Lakin beynəlxalq təzyiqin xeyri olmadı. 2009-cu il noyabrın 11-də iki ay sürən məhkəmə dinləmələrindən sonra Emin və Adnan "xuliqanlıq" və "fiziki xəsarət yetirməyə" görə 30 və 24 ay müddətinə həbs cəzasına məhkum edildilər. Sonralar Adnan bildirirdi ki, hər hansı bir sübutun məhkəmədə xeyri olacağına inanmırdı. Onun dediyinə görə, "hətta bütün insidentin video yazısı olsaydı belə, biz yenə də həbs ediləcəkdik"[129]

Qərar hamı tərəfindən pislənildi. Avropa Şurasının Baş Katibi bu hadisələrin "Azərbaycanda fikir azadlığına qaçılmaz təsiri olacağını" və "Azərbaycanda azadlıq və ümumiyyətlə insanların rifahının təhlükədə olduğunu" bildirdi.[130] AB "məhkəmə prosesinin hüquqi prosedura uyğun olmadığı" və "bu məhkəmə qərarının gələcəkdə Azərbaycanda sərbəst fikir bildirmək azadlığına mənfi təsir göstərəcəyindən" təəssüfləndiyini bildirdi.[131] ABŞ Dövlət Departamenti qərarı

---

126 ESI-ın Vəfa Cəfərova ilə müsahibəsi , Yanvar 2011

127 Eurasianet, "Azərbaycan: Bloggerlərin Məhkəməsində verilən ifadələrdə ziddiyyətlər var" ("Azerbaijan: Contradictions Emerge During Blogger Trial Testimony"), 17 Sentyabr 2009, http://www.eurasianet.org/departments/insightb/articles/eav091809c.shtml

128 Article 19, Azad fakir bildirmək üçün keçirilən qlobal kampaniya, Human Rights Watch və Beynəlxalq PEN, İki gənc fəalın məhkəməsi ilə bağlı Azərbaycan Prezidentinə məktub, 4 Sentyabr 2009, http://www.hrw.org/en/news/2009/09/04/letter-president-azerbaijan-regarding-trial-two-youth-activists.

129 Adnan Hacızadə ilə ESI müsahibəsi, Baku, December 2010.

130 Avropa Şurasının Baş Katibi Thorbjørn Jagland, "Azərbaycanda ifadə azadlığı basqı altındadır", Bəyanat, 12 Noyabr 2009, https://wcd.coe.int/wcd/ViewDoc.jsp?Ref=PR838(2009)&Language=lanEnglish&Ver=original&Site=DC&BackColorInternet=F5CA75&BackColorIntranet=F5CA75&BackColorLogged=A9BACE.

131 AB-də İsveç sədrliyi, "Azərbaycan haqqında sədrliyin bəyanatı", 12 Noyabr 2009, http://www.se2009.eu/en/meetings_news/2009/11/12/presidency_statement_on_azerbaijan.

"Azərbaycanın demokratik islahatlar yolunda atdığı geriyə addım" kimi qiymətləndirdi.[132] Freedom House təşkilatı cəzanı "kifayət qədər narahatlıq doğuran" adlandırdı.[133] Reporters Without Borders məhkəmənin "əvvəldən sona qədər utancverici", "hiddətləndirici və ədalətsiz" olduğunu bildirdi.[134] Amnesty International hər iki gənci vicdan məhbusu elan etdi.[135] Qərarın daha yüksək instansiyada apellyasiya vasitəsilə dəyişdirilməsi də uğursuzluqla nəticələndi. 2010-cu ilin martında Bakı Apellyasiya Məhkəməsi Emin və Adnan barəsində çıxarılmış qərarı qüvvəsində saxladı.[136] 2010-cu ilin avqustunda Ali Məhkəmənin də qərarı qüvvədə saxlamasından sonar vəkillər işi Avropa İnsan Hüquqları Məhkəməsinə göndərməyi qərara aldılar.[137]

İki illik həbs cəzasının bir ili keçdikdən sonar Adnan vaxtından əvvəl azadlığa buraxılmaq üçün müraciət edə bilərdi. Azərbaycan qanunvericiliyinə əsasən, məhbus nümunəvi davranış göstərdiyi halda onun həbs cəzasının müddətinin yarısı keçdikdən sonra azadlığa buraxıla bilər. Lakin bu, Adnana şamil edilmədi. 2010-cu il iyulun 26-da Bakı Qaradağ Rayon Məhkəməsinin qərarına görə Adnan günahını etiraf etmədiyi və həbsdə nümunəvi davranış göstərmədiyi üçün azad edilə bilməzdi. Azadlıq Radiosunun verdiyi məlumata əsasən,

> "Həbsxana rəsmiləri Natiq Hacıyev və Əli Nəbiyev Adnanın öz günahını etiraf etmədiyini, həmçinin vaxtının çoxunu kitab oxumaq və həbsxanada intellektual oyunlar təşkil etməklə məşğul olduğunu, həbsxananın divarını rəngləməkdən və həyətini təmizləməkdən imtina etdiyini söylədilər... Hacızadə həbsxana rəsmilərinin dediklərinin həqiqətə uyğun olmadığını və özünü həbsxanada nə qədər yaxşı aparmasından asılı olmayaraq hakimin onu buraxacağına inanmadığını bildirdi."[138]

Dinləmə zamanı, həbsxana işçiləri Adnan Hacızadənin vəkili ilə "çox tez-tez" görüşdüyündən də şikayət etdilər.

Bundan sonra isə yenə də apellyasiya, etirazlar və pisləmələr davam etdi. 2010-cu il sentyabrın 24-dətarixində Nyu Yorkda keçirilən BMT Baş Assambleyasının yığıncağı zamanı ABŞ prezidenti Barak Obama İlham Əliyevdən bu iki məhbusu azad etməyi xahiş etdi[139] Azərbaycan

---

132 ABŞ Dövlət Departamenti, "Həbs edilmiş gənc fəallar Emin Milli və Adnan Hacızadənin işi ilə bağlı məhkəmə qərarı", Mətbuat üçün Bəyanat, 11 Noyabr 2009, http://www.state.gov/r/pa/prs/ps/2009/nov/131798.htm.

133 Freedom House, "Bloggerlərin həbsi Azərbaycanda yeni medianın yaranmasına təhülkə yaradır "( "Bloggers' Jailing Threatens New Media's Emergence in Azerbaijan"), 12 Noyabr 2009, http://www.freedomhouse.org/template.cfm?page=70&release=1095.

134 Sərhədsiz Reportyorlar, "İki bloggerin həbsi 'hiddətləndirici və ədalətsiz' olaraq qiymətləndirilir" ("Prison sentences for two bloggers condemned as 'outrageous and unjust'"), 12 Noyabr2009, http://en.rsf.org/azerbaijan-prison-sentences-for-two-bloggers-12-11-2009,34972.html.

135 Amnesty International, "Həbs edilmiş Azərbaycanlı bloggerlər vicdan məhbusu élan edildilər" ("Jailed Azerbaijani bloggers adopted as prisoners of conscience"), 12 Noyabr 2009, http://www.amnesty.org/en/news-and-updates/news/jailed-azerbaijani-bloggers-adopted-prisoners-conscience-20091112.

136 Azadlıq Radiosu, "Həbs edilmiş Azərbaycanlı Bloggerlərin Appelyasiya şikayəti rədd edildi" ("Jailed Azerbaijani Bloggers' Appeal Rejected"), 10 Mart 2010, http://www.rferl.org/content/Jailed_Azerbaijani_Bloggers_Appeal_Rejected/1980103.html.

137 Azadlıq Radiosu, "Azərbaycan Ali Məhkəməsi Bloggerlərin həbsini qüvvədə saxladı" ("Azerbaijan Supreme Court Upholds Bloggers' Sentences"), 20 Avqust 2010, http://www.rferl.org/content/Azerbaijan_Supreme_Court_Upholds_Bloggers_Sentences_/2132682.html..

138 "Həbs edilmiş Azərbaycanlı bloggerlərin appelyasiya şikayəti rədd edildi" ("Jailed Azerbaijani Blogger's Appeal Rejected"), Azadlıq Radiosu, 27 İyul 2010, http://www.rferl.org/content/Jailed_Azerbaijani_Bloggers_Appeal_Rejected/2111055.html.

139 Ağ Ev, Mətbuat Xidməti, "Prezident Obamanın Azərbaycan Prezidenti İlham Əliyevlə görüşü barədə məlumat" ("Read-out of President Obama's meeting with Azerbaijani President Ilham Aliyev"), 24 Sentyabr

hakimiyyəti inadkarlıq göstərdi, lakin bu iş beynəlxalq aləmdə böyük bir utanc gətirdi. Obama ilə görüşdən iki ay keçməmiş dönüş nöqtəsi baş verdi. Gözlənilmədən, Adnanın qalan həbs müddətindən azad olması barədə edilən appelyasiya şikayətinə müsbət cavab verildi. O, 18 Noyabr 2010-cu il tarixində azad edildi. Növbəti gün isə həbs cəzasının yarısını (30 aydan 15-ni) çəkmiş Emin Milli də azad edildi.[140] Onlar Bakını tərk etməyəcəkləri şərti ilə azad edildilər.

“Düzünü desəm, bu vaxta qədər də dəqiq nə üçün həbs edildiyimi bilmirəm,” azadlığa çıxdıqdan sonra verdiyi müsahibə zamanı Emin deyirdi. “ Lakin düşünürəm ki mən sadəcə həqiqəti dediyim, müstəqil düşündüyüm üçün həbs edilmişdim və uzunqulaq videosu da bunun bir hissəsi id.”[141] “ Mən azadlıq üçün darıxmışam,” deyə əlavə etdi. “ Mənəvi azadlıq üçün deyil, çünki həbsdə belə mən mənəvi cəhətdən azad idim. Mən hərəkət etmək azadlığı, İnternetdən istifadə azadlığı üçün darıxmışam. Mən fikirləşirəm ki, İnternet qadağası bizim nəsil üçün yeni bir zorakılıq metodudur.”[142] Azadlığa çıxdıqdan bir neçə həftə sonra həm Emin, həm də Adnan fəaliyyətlərini davam etdirmək arzusunda olduqlarını bildirdilər. Emin ədalətsiz şəkildə həbs edilmiş insanların təbliğat kampaniyasında iştirak etmək istədiyini söylədi. Adnan siyasətlə məşğul olmaq istəmədiyini desə də, ədalətsizlik əleyhinə fəaliyyət göstərmək istədiyini bildirdi.[143] 12 Dekabr 2010 tarixində Emin və Adnan YouTube-da yerləşdirdikləri 6 dəqiqəlik videoda onlara dəstək olan bütün insanlara və təşkilatlara minnətdarlıqlarını bildirdilər:

> “Biz ömrümüzün sonuna qədər hər kəsə dediyi bir kəlmə sözə, etdiyi hər bir klikə, hər video və petisiyaya görə minnətdar olacağıq.”[144]

## 4. DİSSİDENTLİYİN GƏLƏCƏYİ

> *“Biz də xarici müdaxilənin əleyhinəyik, bizim yeganə istəyimiz hakim qüvvələrin təntənəli surətdə and içdiyi və imzaladığı dəyərlərə itaət etmələridir.”*
>
> Jiri Hayek və Zdenke Mlynar, kommunist Çexoslovakiyasının dissidentləri, 1975

### A. *Avtoritar stabillik və Avropa Şurası*

2001-ci il yanvarın 25-də Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsi münasibətilə Prezident Heydər Əliyev Avropa Şurasının Strasburqda yerləşən Parlament Assambleyasına müraciət ünvanladı. Əliyev Azərbaycan qanunvericiliyinin Şuranın standratlarına uyğun olması üçün göstərdiyi cəhdləri vurğulayaraq, “Bu gün Azərbaycanın demokratik inkişafı artıq qaçılmazdır” deyirdi.

---

2010, http://www.whitehouse.gov/the-press-office/2010/09/24/read-out-president-obamas-meeting-with-azerbaijani-president-ilham-aliye.

140 Maarif Əkbərli, Kler Biqq, “Məhkəmə Azərbaycanlı ‘Uzunqulaq Bloggerlərinin’ azad edilməsiylə bağlı qərar çıxardı” (“Court Orders Release Of Azerbaijani ‘Donkey Bloggers’”), Azadlıq radiosu, 19 Noyabr 2010, www.rferl.org/content/Court_Orders_Release_Of_Azerbaijani_Donkey_Blogger/2223427.html.

141 “Azad edilmiş Azərbaycanlı bloggerlər internetsiz keçirdikləri bir ilin işgəncə olduğunu deyirlər” (“Freed Azerbaijani Blogger Says Year Without Internet Was ‘Torture’”), Azadlıq Radiosu, 19 Noyabr 2010, http://www.rferl.org/content/Freed_Azerbaijani_Blogger_Says_Year_Without_Internet_Was_Torture/2224983.html.

142 *Ibid.*

143 Adnan və Eminlə ESI-ın müsahibəsi, Bakı, Dekabr 2010.

144 “Emin və Adnan: Biz Qayıtdıq və Sizə təşəkkür edirik”, YouTube, 12 Dekabr 2010, http://www.youtube.com/watch?v=LEI6ASpRWTA.

> "Azadlıq və qanunun aliliyi tam təmin edilmişdir. Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsi təkcə onun müstəqilliyinin, suverenliyinin, demokratikliyinin və inkişafının tanınması deyil, bu həm də Azərbaycanın inkişafında onun Avropa ailəsinin bərabərhüquqlu üzvü kimi yeni bir mərhələnin başlanğıcıdır." [145]

Bu nitqdən 10 il sonra Əliyevin sözləri içi boş bir çuxuru xatırladırdı. O vaxtdan bəri keçirilən heç bir seçki beynəlxalq standartlara uyğun gəlməmişdir. Freedom in The World-un (Dünyada Azadlıq) 2004-cü il hesabatında Azərbaycan "qismən azad" ölkələr siyahısından "qeyri-azad" ölkələr siyahısına düşmüşdür. Səbəbi isə "oktybarda [2003] keçirilən prezident seçkilərində ciddi saxtakarlığa yol verilməsi və hökumətin müxalifət tərəfdarlarına ardıcıl təzyiq göstərməsi" olmuşdur.[146] O vaxtdan bəri Azərbaycan mətbuat azadlığına qoyulan məhdudiyyətlərin getdikcə artırıldığı və "Prezident İlham Əliyevin və hakim Yeni Azərbaycan Partiyasının gücündən ibarət monopoliyanın yaradıldığı" "qeyri-azad" ölkə olaraq qalmışdır.[147]

2007-ci ildən başlayaraq müstəqil votçdoq təşkilatı olan Sərhədsiz Reportyorlar İlham Əliyevi bütün dünyada mətbuat azadlığına göstərdikləri təzyiqə görə dövlət başçıları və təşkilatlarını sıralandıran "Mətbuatın Düşmənləri" siyahısında 40-cı yerdə yerləşdirmişdir.[148] 2007-ci ildə Jurnalistləri Müdafiə Komitəsi Azərbaycanı ATƏT regionunda biri Rusiya olmaqla "mətbuatla ən pis rəftar edən" iki ölkədən biri kimi tanımışdır.[149] Amnesty International Azərbaycanda həbs olunan jurnalistləri vicdan məhbusu elan etmişdir.[150] Freedom House 2010-cu il üçün hazırladığı "Keçid dövründə yaşayan xalqlar" ("Nations in Transit") hesabatında Azərbaycana "müstəqil mətbuat" kateqoriyasında ən aşağı 7 qiymətindən 6.75 qiymətini vermişdir.[151] Human Rights Watch-un ən son hesabatında əks olunan mənzərə də ürəkaçan deyil:

> "Azərbaycan hökumətinin ölkədə ifadə azadlığının məhdudlaşdırılması üçün göstərdiyi cəhdlər narahatlıq doğurur. Yüksək vəzifəlili hökumət məmurları jurnalistləri və hökuməti tənqid edən hüquq müdafiəçilərinin əleyhinə çox tez-tez defamasiya və digər cinayət xarakterli işlərin açılmasına səbəb olurlar. Onlarla journalist istintaqa cəlb olunur, həbs, yaxud cərimə edilir."[152]

---

145 "Zati Aliləri C-b Heydər Əliyev, Azərbaycan Respublikasının Prezidentinin Avropa Şurasının Parlament Assambleyasında müraciəti", Strasburq, 25 Yanvar 2001, http://www.azerbembassy.org.cn/eng/statements5.html.

146 Freedom House, "Dünyada azadlıq 2004" ( "Freedom in the World 2004") (Azərbaycan üzrə ölkə hesabatı), http://www.freedomhouse.org/template.cfm?page=22&year=2004&country=2884.

147 Freedom House, "Dünyada azadlıq 2009" ( "Freedom in the World 2009") (Azərbaycan üzrə ölkə hesabatı) http://www.freedomhouse.org/template.cfm?page=22&year=2009&country=7560.

148 Mətbuat Azadlığı üçün Sərhədsiz Reportyorlar, "Düşmənlər: İlham Əliyev, Prezident, Azərbyacan" ("Ilham Aliev, President, Azerbaijan"), http://en.rsf.org/predator-ilham-aliev,37258.html.

149 JMK (CPJ), komitənin iclasında "Avropa Təhlükəsizlik və Əməkdaşlıq Komitəsi qarşısımda verilən ifadə" ("Testimony before the Commission on Security and Cooperation in Europe" ), "ATƏT regionunda Mətbuat Azadlığı" ("Freedom of the Media in the OSCE Region"), 2 Avqust 2007. http://www.cpj.org/regions_07/europe_07/testimony_russia_internet_02aug07.html#backslide.

150 Amnesty International, "Azərbaycan: Düşüncəni sərbəst ifadə etmək azadlığı haqqında verilən qarışıq ismarıclar", ("Azerbaijan: Mixed Messages on Freedom of Expression"), 2008. http://www.amnesty.org/en/library/asset/EUR55/002/2008/en/b6e7e186-e5ea-11dc-a281-c950ca3e72a9/eur550022008eng.pdf.

151 Freedom House, "Keçid dövrü yaşayan xalqlar: Azərbaycan 2010" ("Nations in Transit: Azerbaijan 2010"), http://www.freedomhouse.eu/images/Reports/NIT-2010-Azerbaijan-final.pdf

152 Human Rights Watch, *Döyülmüş, Qara Siyahıya salınmış və Barmaqlıqlar arxasında: Azərbaycanda İfadə Azadlığı üçün məhv olan məkan* (*Beaten, Blacklisted and Behind Bars: The Vanishing Space for Freedom of Expression in Azerbaijan*, Oktyabr 2010, http://www.hrw.org/en/reports/2010/10/26/beaten-blacklisted-and-behind-bars

Tənqidlərlə üzləşən Azərbaycan hökuməti və tərəfdarları iki cür müdafiə xətti seçmişdir. Bunlardan birincisi ölkənin hələ də keçid dövründə olması və tam demokratik standartların həyata keçirilməsi üçün bir qədər vaxtın lazım olması, lakin buna baxmayaraq ümumi tendensiyanın müsbət olduğunu bildirməkdir. 1997-ci ilin iyulunda ABŞ-a ilk səfəri zamanı Heydər Əliyev bununla bağlı danışarkən bildirmişdir:

> "Bəzi insanlar düşünür ki, biz qısa bir müddətdə demokratiyaya nail olmalıyıq, lakin bu mümkün deyildir. Azərbaycan xalqı gəncdir və demokratiya da bizim üçün yeni bir anlayışdır. ABŞ demokratiya yolunda 200 ildən çox bir müddətdə uğur qazanmışdır. Siz çox şeyə nail olmusunuz, lakin hələ də bu yolda görüləcək işləriniz var. Demokratiya alma deyil ki, bazardan alıb evə gətirəsiniz."[153]

10 il sonra oxşar arqumentləri Azərbaycanın Avropa Şurasındakı təmsilçiləri gətirirdilər. 2007-ci ilin aprelində parlament assambleyasında gedən debatlar zamanı Azərbaycan nümayəndə heyətinin üzvü Gültəkin Hacıyeva bildirdi:

> "Biz tam mənada Avropa demokratiyasına nail olmuş kimi davranacaq qədər sadəlövh deyilik. Həqiqi demokratik standartlara nail olmaq üçün görüləcək hələ çox iş var ... demokratiya inqilabi proses deyildir, təkamül prosesidir ... Bizim avropalı olmaq istəyimiz var və özümüzü Avropanın bir hissəsi hesab edirik, lakin bizim sizin sevginizə, dəstəyinizə və bizi anlayışınıza ehtiyacımız var."[154]

İkinci arqument isə demokratiya sahəsində olan çatışmazlıqların Azərbaycanın xüsusi geosiyasi vəziyyətindən irəli gəlməsi arqumentidir. Bu arqumentin tərəfdarları israr edirlər ki, qonşuluq və Ermənistanla olan münaqişə vəziyyətinə görə Azərbaycan hələ tam şəkildə demokratik idarəetmənin öhdəsindən gələ bilməz. 2010-cu ildə, Londonda yerləşən və Azərbaycan hökumətini dəstəkləyən Avropa Azərbaycan Cəmiyyəti adlı QHT "Azərbaycan və İnsan Haqları: Qərbin İkili Standartları?" adlı məqalə çap etmişdir. Məqalədə,

> "Azərbaycanda insan haqlarının vəziyyəri ədalətsiz tənqidə məruz qalır. Seçkilərdə 25 əsas siyasi partiyanın iştirak etməsinə baxmayaraq, əsas diqqət dissident jurnalistlər və müxalifətin siyasi fəaliyyətinin iddia edildiyi kimi məhdudlaşdırılması üzərində cəmləşdirilir... Demokratiya Azərbaycanda rüşeym halındadır və bu keçid dövründə Bakı çox zaman nizam-intizam və stabilliyi prioritet hesab etməyə məcburdur. Xüsusilə də bu Dağlıq Qarabağın Ermənistan tərəfindən qeyri-qanuni işğalı ilə bağlı ölkənin müvəqqəti hazırlıq mərhələsində olduğu üçündür."[155]

Tədrici keçid kənarda da qəbul olunur. 2010-cu ilin iyulunda Bakıya səfəri zamanı ABŞ-ın Dövlət Katibi Hillari Klinton Azərbaycan təcrübəsini Amerika ilə müqayisə etmişdir. "Demokratiyanın qurulması zaman tələb edir", deyə o bildirmişdir, "hətta ABŞ belə öz son məqsədinə çatmamışdır". Bundan əlavə o bildirmişdir ki,:

---

153 Əliyev– Sitatlar. "Demokratiya-Alma deyil" ("Democracy – Not an Apple"), *Azerbaijan International*, 5.3, Payız 1997 http://www.azer.com/aiweb/categories/topics/Quotes/quote_aliyev.heydar.html

154 AŞPA, "Hesabat: Adi sessiya (İkinci hissə), On birinci sessiya" ("Report: Ordinary Session (Second part), Eleventh sitting"), 16 Aprel 2007, http://assembly.coe.int/Main.asp?link=/Documents/Records/2007/E/0704161500E.htm.

155 Avropalı Azərbaycanlılar Cəmiyyəti , "Azərbaycan və İnsan Haqları: Qərbin İkili standartları?", səh. 1-2, https://teas.eu/sites/default/files/HR.pdf.

> “Düşünürük ki, Azərbaycanda əhəmiyyətli irəliləyiş əldə olunmuşdur. Lakin digər gənc ölkələr kimi burada da hələ təkmilləşdiriləcəkçox sahə var.”[156]

Hətta Avropa Birliyi də məsələyə bu perspektivdən yanaşır: 2007-2013-cü illərdə Azərbaycana yardım üçün hazırlanmış strategiya sənədi də “Azərbaycan demokratiyanın inkişaf etdirilməsi üçün “təkamül” islahatları strategiyasını həyata keçirir” adlanır. [157]

Avropanın ən qədim demokratiya klubu hesab edilən Avropa Şurası isə bu qədər vaxt ərzində gözləntiləri doğrultmamışdır. 2002-ci ildə Şuranın Azərbaycana təyin etdiyi ilk hesabatçı Andreas Qross bildirirdi ki, üzv dövlətlər “öhdəlik və dəyərlərə əməl etmədiyi zaman, onların Şurada üzvlüyü təhlükədədir. Biz (Azərbaycanı) üzvlüyə qəbul etməkdə açıq fikirli və liberal olmuşuq və öhdəliyə əməl edilməsi üçün biz düzgün və sərt mövqe tutmalıyıq”. Lakin bu baş vermədi. Avropa Şurası və AŞPA davamlı olaraq Azərbaycanda keçirilən hər yeni seçkini ölkənin demokratik proqress əldə etməsində “həlledici test” adlandırır. Keçirilən hər bir seçki demokratik standartlara uyğun olmamasına baxmayaraq heç bir sanksiya tətbiq edilməmişdir.

AŞPA qətnamələri və debatların protokollarına nəzər yetirəndə boş vədlər və doğrulmayan gözləntilər aşkar görünür. 2003-cü ildə keçirilmiş seçkilərdən sonra Avropa Şurasının Parlament Assambleyası (AŞPA) tərəfindən qəbul edilmiş qətnamədə “seçicilərin hədələnməsi”, müxalifət tərəfdarlarının “qurma həbslər”i, mətbuatın “aşkar ikili standartları” və təhlükəzilik strukturlarının “həddən artıq güc tətbiq etməsi” kimi ifadələr işlədilmişdir. AŞPA-nın qətnaməsində bildirilir ki, “Üzvlüyü artıq 10 ildən çox sürən Avropa Şurası üzvü üçün bu təcrübə qəbuledilməzdir,” .[158]

2005-ci ildə Avropa Şurası 1456 nömrəli Qətnaməni qəbul edərək, 2005-ci ilin noyabrında keçirilən parlament seçkilərinin “ölkənin demokratik inkişafı üçün həlledici bir test” olduğunu qeyd etdi.[159] Seçkilərin bir sıra zorakılıqlar və pozuntularla müşahidə olunduğu aşkara çıxdığı zaman AŞPA Azərbaycan nümayəndə heyətinin etimadnaməsinin ratifikasiya edilməsi ilə bağlı qısa bir debat təşkil etdi. Sonda isə heç bir tədbir görülmədi.

2007-ci ildə AŞPAnın Azərbaycan üzrə məruzəçisi Andreas Herkel Strasburqdakı müzakirələr zamanı 2005-ci il seçkilərindən sonra Azərbaycanda heç bir əhəmiyyətli inkişafın olmadığını etiraf etdi. Elə həmin müzakirələr zamanı Herkellə birgə Azərbaycan üzrə həmməruzəçi olan Toni Lloyd 2008-ci ildə keçiriləcək president seçkilərinin növbəti sınaq olacağını söylədi: “2008-ci il seçkiləri Azərbaycanın demokratiyaya, habelə xalqların demokratik quruluşda yaşamasını əsas tutan Avropa Şurası Assambleyası ailəsinə həqiqətən aid olub-olmadığını müəyyən etmək üçün ciddi bir sınaq olacaq.”[160] 2008-ci ilin iyununda çıxmış “Demokratik İnstitutların Azərbaycanda fəaliyyəti” adlı hesabatda isə AŞPA təmsilçisi daha güclü şəkildə xəbərdarlıq edirdi:

---

156 ABŞ Dövlət Katibi, Hilari Rodham Klinton, “Azərbaycanın Xarici İşlər Naziri Məmmədyarovla birgə mətbuat konfransı” (“Joint Press Availability with Azerbaijani Foreign Minister Mammadyarov”), 4 İyul 2010, http://www.state.gov/secretary/rm/2010/07/143961.htm.

157 Avropa Qonşuluq və Əməkdaşlıq Vasitələri, *Azərbaycan: Ölkə üzrə strategiya sənədi 2007-2013*,səh. 6, http://ec.europa.eu/world/enp/pdf/country/enpi_csp_azerbaijan_en.pdf

158 Avropa Şurası Parlamentinin 1358 nömrəli Qətnaməsi, 2004 http://assembly.coe.int/Main.asp?link=/Documents/AdoptedText/ta04/ERES1358.htm..

159 AŞPA-nın 1456 nömrəli qətnaməsi (2005), “Azərbaycan demokratik institutların fəaliyyəti” (“Functioning of democratic institutions in Azerbaijan”), 22 İyun 2005. http://assembly.coe.int/main.asp?Link=/documents/adoptedtext/ta05/eres1456.htm.

160 AŞPA, “Hesabat: Adi sessiya (İkinci hissə), On birinci sessiya” (“Report: Ordinary Session (Second part), Eleventh sitting”), 16 Aprel 2007, http://assembly.coe.int/Main.asp?link=/Documents/Records/2007/E/0704161500E.htm..

> "2008-ci il oktyabr seçkiləri Azərbaycan hökuməti üçün ölkəni hüquq və insan haqlarına hörmət edən demokratiyaya doğru apardığını sübuta yetirmək üçün əsas sınaq olacaqdır. Azərbaycan Avropa Şurası qarşısında götürdüyü öhdəlikləri və seçkilərin demokratik keçirilməsi üçün mövcud olan standartlara məhəl qoymaya bilməz."[161]

Gözlənildiyi kimi, 2008-ci il seçkiləri də demokratik olmadı. Avropa İttifaqının Azərbaycan üzrə hesabatında seçkilərin "Sərbəst toplaşmaq azadlığı, namizədlərin mətbuatda çıxış etmək imkanları, səslərin düzgün sayılması və tabulyasiya nəticələri daxil olmaqla ATƏT standartlarına cavab vermədiyini…ümumilikdə isə seçkiqabağı vəziyyətin pisləşən siyasi mühitlə xarakterizə edildiyini, həqiqi plüralizmin olmadığını" bildirmişdir.[162]2010-cu ildə parlament seçkiləri zamanı Human Rights Watch təşkilatı "azad fikrə olan təzyiqlər nəticəsində qarşıdan gələn seçkiləri də 2003, 2005 və 2008-ci ildə keçirilmiş seçkilərin aqibəti gözləyir" deyə xəbərdarlıq etmişdi. "Bu narahatlıq yenə də özünü doğrultdu. DİİHB-nun 2010-cu il seçkiləri nəticəsində hazırladığı hesabatda deyilir:

> "Mənalı və rəqabətli seçki üçün lazım olan müəyyən şərtlər bu seçkilərdə təmin edilməmişdir. Sərbəst toplaşmaq və ifadə azadlığı kimi fundamental azadlıqlar məhdudlaşdırılmış və canlı siyasi diskursa azad və müstəqil mətbuat tərəfindən təkan verilməsi demək olar ki qeyri-mümkün olmuşdur ."[163]

2006-cı ilin yanvarından sonra Azərbaycan demokratiyasındakı davamlı çatışmazlıqlara baxmayaraq Şura assambleyası aşkar saxtakarlıq nəticəsində seçilmiş Azərbaycan nümayəndə heyətinə yer verməkdən imtina etmək kimi simvolik bir addım atmaq barədə belə heç bir müzakirə aparmadı. Bu, Azadlıq Radiosunun jurnalistləri Kənan Əliyev və Xədicə İsmayılovanı 2008-ci ilin iyununda məqalə yazaraq aşağıdakı sualı verməyə təhrik etdi:

> "Azərbaycanın fundamental azadlıqlar, insan haqları və demokratiya sahəsində qeydə alınan aşağı göstəriciləri nəzərə aldıqda təbii olaraq sual yaranır: Avropa Şurası nə ilə məşğuldur və bu təşkilata üzv olmaq nə deməkdir?"[164]

Bununla yanaşı, Bakı rəsmiləri xaricdən gələn tənqidlərə qarşı daha inadkarcasına müqavimət göstərməyə başladılar. 23 iyul 2010-cu ildə Prezident Əliyev yeni açılmış Twitter hesabı PresidentAz-dan yazırdı: "Söz azadlığı, demokratik inkişaf və hüquqi dövlətin qurulması Azərbaycanda başlıca məsələlərdir." Eyni ayda, dövlət tərəfindən mailiyyələşdirilən Mətbuat Şurasının ofisinin açılış mərasimində Əliyev Azərbaycanın 1990-cı illərin əvvəllərindən bəri müharibə şəraitində olduğunu vurğulayaraq bütün jurnalistlərin qarşısında vətənpərvəlik ruhunun qaldırılması kimi mənəvi bir borc olduğunu bildirdi. Əliyevin qeyd etdiyinə görə, tənqid etmək qorxuludur, çünki bu Azərbaycanın ölkədən kənardakı imicinə zərbədir və ölkənin rəqiblərinə "əlavə arqumentlər" verir:

---

161 AŞPA, "Azərbaycan demokratik institutların fəaliyyəti" ("The functioning of democratic institutions in Azerbaijan"), 11627 nömrəli sənəd, 6 İyun 2008, http://assembly.coe.int/Main.asp?link=/Documents/WorkingDocs/Doc08/EDOC11627.htm.

162 Avropa Kommissiyası, "Avropa Qonşuluq Siyasətinin 2008-ci ildə həyata keçirilməsi: Azərbaycan üzrə inkişaf hesabatı", səh. 3, http://ec.europa.eu/world/enp/pdf/progress2009/sec09_512_en.pdf

163 ATƏT/DTİHB, "Azərbaycan Respublikası, Parlament Seçkiləri, 7 Noyabr 2010- ATƏT/DTİHB Seçki Müşahidə Missiyasının Yekun Hesabatı", Varşava, 25 Yanvar 2011, səh. 1.

164 "Avropa Şurasının Azərbaycana təsiri varmı" ("Does Council Of Europe Matter In Azerbaijan?"), *Azadlıq Radiosu*, 24 İyun 2008, http://www.rferl.org/content/Commentary_Does_Council_Of_Europe_Matter_In_Azerbaijan/1145037.html.

> “Mətbuatda yalan məlumatın yayılması qəbuledilməzdir. Keçmiş zamanda bu çox geniş yayılmış yanaşma idi. Sensasiya yaratmaq üçün yalan məlumat yaradaraq sonra bu yalanların ətrafında müzakirə başlamaq... sonra isə yalanları xarici mətbuata ötürmək və daha sonra bunu dəqiq məlumat kimi geri almaq.”[165]

Son dövrlərdə isə Azərbaycan açıq-aşkar Avropa Şurası və Avropa İnsan Haqları Məhkəməsinin əhəmiyyətini heçə endirmişdir. Bu xüsusilə dövlət sifarişli istintaq və ən məşhur işlərdən biri olan journalist Eynulla Fətullayevin işində özünü göstərdi. Yüksək vəzifəli dövlət məmurlarını kəskin tənqid edən yazılar yazan jurnalist öz fəaliyyəti dövründə “böhtan” və “deffamasiya”ya görə dəfələrlə cərimələnmişdir. Digər hadisə isə onun yazılarının qarşısını almaq üçün atasının oğurlanması olmuşdur. 2007-ci ilin aprelində Fətullayev sonradan özünün yazdığını inkar etdiyi, internet forumlarda onun adından yerləşdirilən yazıya görə “Azərbaycan xalqına qarşı defamasiya” ittihamı ilə həbs edildi. Daha sonra isə terrorizm və vergidən yayınma ittihamları işə əlavə edildi. Fətullayev 8.5 il müddətinə həsb edildi.

İş beynəlxalq aləmdə diqqəti cəlb edərək, bir sıra beynəlxalq təşkilatlar və hüquq müdafiə qruplarının Fətullayevin azadlığa buraxılması üçün çağırışları ilə nəticələndi. 2008-ci ildə AŞPA-nın monitorinq komitəsi Fətullayevi “dərhal azad etməyə” çağırdı.[166] Fətullayevin vəkilləri işi Avropa İnsan Haqları Məhkəməsinə göndərdilər. Lakin Avropa İnsan Haqları Məhkəməsi Fətullayevin işini 2009-cu ilin dekabrında yekunlaşdırdığı bir zamanda həbsdə olan journalistə qarşı yenidən, bu dəfə qanunsuz narkotik saxlama ittihamı irəli sürüldü. ( polis onun üstündən həbsxanada narkotik tapdığını iddia eti). 2010-cu il aprelin 22-də Avropa İnsan Haqları Məhkəməsi Eynulla Fətullayevin dərhal azadlığa buraxılması və ona Azərbaycan hökuməti tərəfindən €27,822 dəyərində kompensasiya ödənməsi ilə bağlı qərar çıxardı.[167] Lakin AİHM-nin qərarına müvafiq olaraq azadlığa buraxılmaq əvəzinə, 6 iyun 2010-cu il tarixində Fətullayev qanunsuz narkotik saxlama ittihamı ilə əlavə 2 il 6 ay müddətinə həbs edildi. Məhkəmə qərarı ABŞ Dövlət Katibi Hillari Klintonun Bakıya səfərindən dərhal sonra elan edildi. Elə həmin ay Azərbaycan hökuməti AİHM-nin qərarından apellyasiya şikayəti verdi. [168] 2010-cu ilin oktyabrında AİHM ilkin qərarı qüvvədə saxlayaraq, Azərbaycan hökumətinin apellyasiya şikayətini rədd etdi. Hökumət isə tələb olunan məbləği hesaba köçürsə də, onu Fətullayevin həbsdən sonra dondurulmuş hesabına köçürdü və bununla da Fətullayevin ailəsini bu pullardan istifadə etməkdən məhrum etdi.[169] Fətullayev bu günə qədər həbsdədir.

2010-cu ilin sentyabrlnda Beynəlxalq Böhran Qrupu Azərbaycan üzrə “Zəif Stabillik” adlı hesabat çap etdi. Hesabatda rejimin bütün daxili ziddiyyətlərə baxmayaraq çox əhəmiyyətli bir çətinliyi olmadan ölkəni idarə etməsi deyilir: “rejimin gücünü və müxalifətin zəifliyini nəzərə

---

165 APA, “Azərbaycan Prezidenti: Biz ifadə azadlığını qoruyub müdafiə edəcəyik”, 23 İyul 2010. http://www.en.apa.az/news.php?id=126688.

166 AŞPA, 1614 nömrəli Qətnamə (2008), “Azərbaycan demokratik institutların fəaliyyəti” (“The functioning of democratic institutions in Azerbaijan”), 24 İyun 2008, http://assembly.coe.int/Mainf.asp?link=/Documents/AdoptedText/ta08/ERES1614.htm.

167 AİHM, “Fətullayev Azərbaycana qarşı” (“Case of Fatullayev v. Azerbaijan) (40984/07 nömrəli ərizə)”, Mühakimə, 22 Aprel 2010, səh. 52-53. http://www.icj.org/img/CASE_OF_FATULLAYEV_v_AZERBAIJAN.pdf.

168 APA, “Azərbaycan hökuməti Eynulla Fətullayevin işi ilə bağlı AİHM-nin verdiyi qərardan Avropa Məhkəməsinin Yuxarı Palatasına appelyasiya şikayəti verib” (“The Government of Azerbaijan appeals ECHR decision on Eynulla Fatullayev before the Grand Chamber of the European Court”), 16 İyul 2010, http://www.en.apa.az/news.php?id=126315.

169 RATİ, “Eynulla Fətullayevin kompensasiyası onun dondurulmuş hesabına köçürülüb” (“Eynulla Fatullayev’s Compension Funds Transferred to His Suspended Account”), 10 Yanvar 2011, http://www.irfs.az/content/view/5514/1/lang,eng/.

alan zaman, azərbaycanlıların çoxu dərhal və köklü dəyişikliyi qeyri-mümkün sayır.”[170] 2010-cu ilin sonunda isə İlham Əliyev rejimi məğlubedilməz görünürdü. Çünki hələ də neft var idi. Cəmiyyətin passiv olması barədə təəssürat yaranırdı. Belə bir fikir yaranmışdı ki, ABŞ və Rusiya kimi güclü xarici dövlətlər rejimi olduğu kimi qəbul ediblər. Avropa Birliyi isə söhbət demokratiya və insan haqlarından getdiyi zaman məsələyə başqa tərəfdən - enerji məsələləri üzərində diqqəti yönəltməklə yanaşır.[171] Əliyev İrsaili də Qafqazda özünün əsas regional müttəffiqi etmiş və özünü İranla gələcəkdə münaqişəsi yarana biləcək bir dövlət kimi təqdim etmişdir. Bu uğurlu kombinasiyaya bənzəyirdi: bir tərəfində ABŞ, Rusiya, AB və İsrail, digər tərəfdə isə susdurulmuş Avropa Şurası var idi, burda nə qorxu ola bilərdi ki ?

Belarusiyadakı repressiyalar zamanı, Minsk rəsmiləri ən azı beynəlxalq tənqidlərlə mübarizə aparmalı olurdular. Bakıdakı rejim isə sanki hər şeyin ən yaxşısını əldə edə bilmişdi: avtoritar rejim və beynəlxalq güzəşt. O zaman, Azərbaycan dissidentləri kimə müraciət edə bilərdilər?

## *B. Buz sınır*

1980-ci illərin əvvəllərində yazdığı əsərlərində Timoti Qarton communist Çexoslovakiyasını “nazik buz qatıyla örtülmüş göl” kimi təsvir edərək, bildirir ki, “bu qat tərpənmir. Lakin buzun altında filosof-fəhlələr, pəncərə təmizləyən jurnalistlər və gecə növbətçisi olan rahiblər arasında həyat hərəkətdədir”[172] Qarton Eşin haqqında yazdığı dissident hərəkatı “Xartiya 77” kimi tanınırdı ki, onun da 1977-ci ildə qəbul edilmiş orijinal deklarasiyası onu “azad, qeyri formal, müxtəlif əqidəli, inanclı və müxtəlif peşələrə sahib insanların açıq cəmiyyəti” kimi təsvir edərək insan haqlarının müdafiəsində durduğunu bildirirdi. Xartiyanın müəllifləri Vatslav Havel, Jdenek Mlinar və Yan Patoçka yazırdı: “Ölkədə insan hüquqlarının qorunması təbii olaraq, ilk əvvəl siyasi və möhkəm hakimiyyətin üzərinə düşür. Amma yalnız onun üzərinə yox. Bizim aramızda olan hər bir kəsin ümumi vəziyyətin bərqərar olunmasında müəyyən məsuliyyəti var, ona görə də imzalanmış razılıqları həm hakimiyyət, həm də vətəndaşlar öz üzərlərinə götürdükləri öhdəlik kimi qəbul etməlidirlər”[173]

Mətbuat dəyişmişdir. Bu gün dissidentlər artıq çap makinalarında 12 nüsxədə samizdat ədəbiyyat çap etməyə məcbur deyillər. Bunun yerinə onlar bloq yazıları yazır və Facebook vasitəsilə ünsiyyət qururlar. Fundamental dinamika isə özünün normaları və dəyərləri ilə dəyişməz olaraq qalmışdır. 1978-ci ildə Vatslav Havel özünün “Gücsüzlərin gücü” adlı essesində yazırdı:

> “‘dissident’... yayılmağa başladığı sistemin indiki tarixi mərhələsinin təbii və labüd nəticəsidir. Minlərcə səbəbdən, sistem artıq özünə qarşı müqavimətin bütün özünüifadə formalarını məhv edərək, hakimiyyətin zalım, despot xarakterini əsaslandıra bilməyən şəkildə ortaya çıxmışdı …sistem siyasi cəhətdən elə qəddarlaşmışdı ki, faktiki olaraq, rəsmi strukturlar içində buna qarşı çıxmağa heç bir yol yox idi. .”

---

170 Beynəlxalq Böhran Qrupu, *Azərbaycan-Zəif Stabillik (Azerbaijan - Vulnerable Stability),* N°207, Avropa Hesabatı 3 Sentyabr 2010, səh. 20. http://www.crisisgroup.org/~/media/Files/europe/caucasus/azerbaijan/207%20Azerbaijan%20-%20Vulnerable%20Stability.ashx

171 Avropa Kommissiyasının Azərbaycandakı Nümayəndəliyi, “Prezident Barossonun səfəri”, http://ec.europa.eu/delegations/azerbaijan/eu_azerbaijan/president_barosso_visit_to_azerbaijan/index_en.htm.

172 Timoti Qarton Eş, *Çətin şərtlərdən istifadə: Mərkəzi Avropanın taleyi haqqında esselər* (*The Uses of Adversity: Essays on the Fate of Central Europe),* Granta, 1989, səh. 57.

173 Xartiya 77, 1 Yanvar 1977-ci ildə imzalanmışdır, səh. 3, http://libpro.cts.cuni.cz/charta/docs/declaration_of_charter_77.pdf.

1984-cü ildə yazdığı “Siyasət və Vicdan” essesində Havel bu cür şərtlər altında fərdlərin gücünü təsvir edirdi. “Sovet ittifaqında “dissident”lik xüsusi müasir təcrübədir, qeyri insani gücün vallarındakı həyatın təcrübəsi,” deyə yazırdı. Onun effekti

> “Qərbin siyasi uğur adlandırdığı məfhumdan tamamilə fərqlənir.... Lakin getdikcə daha aydın olur (və mən düşünürəm ki, bu mühüm və universal əhəmiyyəti olan bir şeydir) ki, tək, ilk baxışdan gücsüz görünən insan həqiqəti söyləməyə və bütün həyatı boyu bunun arxasında durmağa hazırdır. Nə qədər təəccüblü olsa da formal olaraq hüquqlarından məhrum olsa da, minlərlə anonim seçicidən fərqli olaraqən ağır cəriməni ödəməyə hazır olan həmin adamın buna daha çox gücüçatır.”[174]

Nəhayət Şərqi Avropada Sovet kommunizminin sonunu gətirən də normativ inqilab oldu. Şərqi Avropa dissidentləri çox zaman hökumətlərinin 1975-ci ildə imzaladığı Helsinki Yekun Aktının insan haqları prinsiplərinə əsaslanırdılar. 1980-ci ildə Polşadakı etirazçıların əsas tələblərindən biri də hökumətin Helsinki Yekun Aktının 50000 nüsxədə paylanmasını təmin etməsi idi.[175] O zaman nə blogerlər, nə Facebook nə də Twitter var idi, lakin ifadə azadlığı uğrunda mübarizə o zaman da problemlərin mərkəzində idi. Sonralar Lex Valensanın yazdığı kimi: “Ən mərkəzdə duran problemlərdən biri də ifadə azadlığı idi (Helsinki Razılaşmasının təbii nəticəsi). Bu fundamental azadlıq olmadan insan həyatı mənasızlaşır; və bircə dəfə bu həqiqət mənim ağlıma gələndən sonra qalan ömrüm boyu düşüncəmin bir hissəsinə çevrildi.”[176]

Bu normativ inqilab və tənqidi və cəsarətli düşünən insanların cəhdləri hakim elitaya da öz təsirini göstərirdi. Bir təhlilçinin qeyd etdiyi kimi, Sovet İttifaqı və Şəqri Avropada partiya liderlərinin çoxu “dissident düşüncəsini rahat həzm edirdi”[177] Sonradan Qorbaçovun yaxın məsləhətçisi olmuş Georgi Arbatovun 1983-cü ildə yazdığı kimi, “Bu günümüzdə necə ola bilər ki, insan haqlarına qarşı olasan? Bu analığa qarşı olmağa bərabər bir şeydir.”[178]

Bu günkü Azərbaycanın 1970-1980-ci illərin Şərqi Avropası ilə bölüşdüyü cəhətlər çoxdur: mətbuat azadlığının ciddi şəkildə məhdudlaşdırılması, bir partiyanın hakim olması, korrupsiya, və, gəncliyin qeyri-konformizmə qarşı dözümü. Yaxın keçmişin Şərqi avropalı dissidentləri kimi azərbaycanlı fəallar da partiya siyasəti və yaxud ənənəvi jurnalistika vasitəsilə dəyişikliyə yol açılmasını qeyri-mümkün hesab edirlər. Onlar hazırki siyasi rejim çərçivəsində keçirilən seçkilərə inanmırlar. Adnanın ESİ-a müsahibəsi zamanı söylədiyi kimi, dəyişikliyin formal siyasi partiyaların mübarizəsi nəticəsində deyil, insan haqları hərəkatlarından gələcəyini gözləmək lazımdır.[179] Bu fikrə Azərbaycanda “siyasi partiyaların dövranının bitdiyini” və müxalifətin xalqın etimadını itirdiyini düşünən insanların əksəriyyəti qatılır.[180] Buna görə də dissidentliyin digər formaları axtarılmağa başlayır.

Bakıdakı Facebook nəsli özlərindən öncəki tarixi nəsildən xəbərdardır. 2010-cu ilin dekabrında Eminin ESI-yə söylədiyi kimi başlanğıcda onun fəaliyyəti sadəcə bir təşəbbüs idi, lakin indi “mən çoxlu kitab oxudum, və gördüm ki, bu mənə bir çox başqa yerlərdə görülən işləri

---

174 Çıxarışları internetdən əldə etmək mümkündür: http://www.fragmentsweb.org/stuff/10havel.html.

175 Tomas Ris, Stefen S.Rop və Ketrin Sikkink (red-lar.*), İnsan Hüquqlarının Gücü: Beynəlxalq Normalar və Yerli Dəyişiklik (The Power of Human Rights: International Norms and Domestic Change),* Cambridge University Press, 1999, səh. 220.

176 *Ibid.*, p. 217.

177 *İnsan Hüquqlarının Gücü: Beynəlxalq Normalar və Yerli Dəyişiklik* (*The Power of Human Rights: International Norms and Domestic Change*), səh. 229.

178 Tomas Rise, Stefen S.Rop və Ketrin Sikkink (red-lar.*), Ibid.*, səh. 229.

179 ESI-ın Adnan Hacızadə ilə müsahibəsi, Bakı, Dekabr 2010.

180 ESI-ın Vəfa Cəfərova ilə müsahibəsi, Istanbul, Yanvar 2011

xatırladır”[181] Azadlığa çıxdıqdan bir az sonra öz dostlarına göndərdiyi elektron məktubda Emin həbsdə olarkən oxuduğu və onu təəssüratlandıran kitabların siyahısnı təqdim etmişdi: siyahının ən yuxarısında Eminin mütləq oxunmalı olan kitablar sırasına aid etdiyi Vatslav Havelin “Gücsüzlərin gücü” essesi dururdu. O diqqəti xüsusi bir sitatın üzərində cəmləşdirirdi: “Posttotalitar sistemdə münaqişə xətti de fakto HƏR BİR ŞƏXSə toxunur, onun yolunda olan hər şəxs həm qurban, həm də sistemin dəstəkçisidir.”[182]

Gələcəkdə hər hansı bir məqamda sülh yolu ilə demokratik dəyişikliyin gəlməsi həm də miras olaraq ötürülmüş dissidentlik mədəniyyətindən asılıdır. Kommunist dövründə Polşanın məşhur dissidentlərindən biri olan Adam Miçnikin həbsxanadan yazdığı bir məktubda qeyd etdiyi kimi,

> “Burada, bir yaz səhərində, insan tamamilə ayrı bir ölkədə yuxudan ayıla bilər… Tarix göstərir ki, kommunistlər bəzi şərtlər altında rasional davranmağa və kompromislərə getməyə məcbur olurlar. ... bizim bu barədə fikrimiz aydın olmalıdır: davam edən münaqişə özq-özlüyündə dialoq və yaxud partlayışa çevrilə bilər.”[183]

1989-cu ilin dekabrında qeyri-zorakı etirazların heç bir cinayət istintaqı və cəzalarla nəticələnməməyəcəyi barədə vəd alan kommunist hökumətləri hakimiyyəti keçmiş dissidentlərə verməyə razılaşdılar. Bu gün Polşa və Çexiya Avropanın demokratiyaya keçid mərhələsində olan ölkələri arasında ən uğurlu olanlarıdır. Bu cür rahat enişi təmin edə bilən insanlar dissidentlər idi.

Azərbaycandakı vəziyyətlə tanış olan hər bir kəs üçün Qarton Eşin “donmuş göl” bənzətməsi həyəcan təbili olmalıdır. Sosial reallığın boz, monolit fasada malik olub gözə çarpmadığı Çexoslovakiya və yaxud Polşanın əksinə olaraq Azərbaycan Əliyevləri məmnun edən demokratik vitrinlər əldə edə bilmişdir. 2003-cü ildə Marina Ottavayın qeyd etdiyi kimi,

> “[Heydər] Əliyev demokratiya dilini çox asanlıqla yarada bilmişdir - onun Qərb auditoriyası qarşısındakı performansı çox mükəmməldir – lakin o dediklərini reallaşdırmır … Əliyevin məqsədi göründüyü kimi, Misirdə olduğu kimi yarı-avtoritar institutlaşmış, oğlu İlhamın prezidentliyi vasitəsilə əbədiləşdirilmiş rejim qurmaqdır.”[184]

İlham Əliyev üçün isə, xüsusilə son zamanlarda Misir bənzətməsi qorxulu bir bənzətməyə çevrilmişdir. Misirdə olduğu kimi, Azərbaycanın da əhalisinin əksər hissəsi gənclərdən ibaərtdir, 25 yaşdan aşağı olanların sayı 43 faizdir.[185] Əliyevin daimi prezidentliyini təmin edən 2009-cu il referendumu yuxarıdan hər hansı siyasi dəyişikliyin olacağı ümidlərinə də son qoydu. Son parlament seçkilərinə gələn seçicilərin sayı ilə bağlı qeydə alınan göstəricilər çox aşağı idi-2005-ci ildə 42.2 faiz, 2010-cu ildə isə 49.56 faiz.[186] Vəfa Cəfərova bunu nəzərə alaraq Əliyevə müraciət edərək deyir:

> “Bu sizə heç nə demir? Diqqətlə oxuyun: Heç kim sizə inanmır! Sizi sevmirlər! Sizdən yalnız qorxurlar! ... Heç bir diktatura əbədi deyildir”[187]

---

181 ESI-ın Emin Milli ilə müsahibəsi, Bakı, Dekabr 2010.

182 ESI-ın Emin Milli ilə elektron yazışması, Yanvar 2011.

183 Adam Miçnik, “Qdansk həbsxanasından məktub”, New York Review of Books, 18 İyul 1985, http://www.nybooks.com/articles/archives/1985/jul/18/letter-from-the-gdansk-prison/?pagination=false.

184 Marina Ottavay, Demokratiya Sınağı*: Yarı-avtoritarizmin dirçəlişi*, Beynəlxalq Sülh Kamegi Fondu, 2003, səh. 52.

185 2010-cu ilin məlumatı. Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, “Əhali”, http://www.azstat.org/publications/azfigures/2010/en/004.shtml.

186 ATƏT/DTİHB, “Yekun Hesabat-Azərbaycanda Parlament seçkiləri”, 7 Noyabr 2010”,səh. 28.

187 Vəfa Cəfərovanın bloqu, ―Cəmiyyət, seçkilər, şərəfsizlik – YAPistan, http://vafajafarova.wordpress.com

2011-ci ildə ərəb dünyasını silkələyən inqilablar Bakıdakı idarəçilərə də, dissidentlərə də Əliyev hökumətini dünyanın bütün avtoritar rejimlərinin gec-tez üzləşdiyi aqibətin gözlədiyinin qaçılmaz həqiqət olduğunu xatırlatdı. Yunanıstandakı polkovniklər, İndoneziyada Suharto, Filippindəki Markos, Serbiyada Miloşeviç, Çilidə Pinoçet və Tunisdə Ben Əli: uzun müddət məğlubedilməz kimi görünən bu güclü insanlar indi artıq tarixdə qalıblar.

Misir, Tunis və Orta Şərqdə baş verənlərin hamısını bir hadisə kimi qiymətləndirərkən Azərbaycandakı elitanın da onların özlərinin düşündükləri qədər güclü olmadığını təxmin etmək olar. Onların yaratdığı parlaq görüntünün altında liderlərdən hüquqların əvəzində əl payı və demokratiya əvəzinə stabillik almaqdan daha çox şey gözləyən bir nəsil yaşayır. Bu Azərbaycanın yaxın gələcəkdə Avropanın ən demokratik ölkəsinə çevriləcəyi ilə bağlı vədlərə ümidini itirməyən bir nəsildir. Onların göstərdikləri səylər xüsusilə demokratik standartların öz üzvləri arasında təmin edilməsini öhdəlik kimi götürmüş Avropa Şurası kimi təşkilatlardan dəstək almağa layiqdir. Nəticə olaraq, ölkənin öhdəlik olaraq götürdüyü qanunlara hörmət etmək Azərbaycan hökumətinin özünün maraqlarına uyğun olardı.

## ESI-ın Türkiyə və Qafqaz üzrə seçilmiş nəşrləri

Anadoludakı ölüm hadisəsi. Xristian missionerləri və Türk ultramilliyyətçiliyi (Yanvar 2011)

Xüsusi münasibətlər. Türkiyənin AB-nə qəbul edilməsi prosesi nədən davam etdiriləcək? (Noyabr 2010)

Böyük Debat – Almaniya, Türkiyə və Türklər. I Hissə: İntellektuallar (2010)

Gürcüstanı yenidən kəşf edərkən: Libertarian İnqilabının Hekayəsi (Aprel 2010)
- Birinci hissə: Gürcüstan model kimi
- İkinci hissə: Bendukidze və Rusiya Kapitalizmi
- Üçüncü hissə: Yakobinlər Tiflisdə
- Gürcüstan inqilabı və buradakı demokratiyanın gələcəyi: Gürcüstan haqqında ədəbiyyat üzrə bələdçi turu

İmtiyazlı Maraq? Cənubi Qafqaz haqqında Rusiyanın debatı (Dekabr2009)

Türkiyənin xarici siyasəti: status quo-dan yumşaq gücə qədər (2009)

Rusiya – Cənubi Qafqaz üzrə dərsliklər: Kim kimdir?
- Birinci hissə: Rusiyanın Çap Mətbuatı və İnternet
- İkinci hissə: Rusiyanın Think Tank-ları
- Üçüncü hissə: Rusiyanın Audiovizual Mətbuatı

Ermənistan-Türkiyə: Böyük Debat (Avqust 2009)

Nuhun Göyərçini Qayıdır. Ermənistan, Türkiyə və Genosid ətrafındakı debatlar. (Aprel 2009)

Peter Nasmisin Gürcüstanı (Yanvar 2009)

Türkiyədə cinsəllik və güc. Feminizm, İslam və Türkiyə demokratiyasının yetkinləşməsi. (2007)

Genişlənməyin yorğunluğu? Türkiyənin qəbul edilməsiylə bağlı Holland müzakirələri (2006)

İslamçı Kalvinistlər. Mərkəzi Anadoluda Dəyişiklik və Mühafizəkarlıq (2005)

*Bütün bu (və digər) materialları [www.esiweb.org](http://www.esiweb.org) səhifəsindən pulsuz əldə etmək mümkündür.*